Əziz qadınlar, bayramınız mübarək!

№ 9 (952) 2-8 mart 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "Mən prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam"




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rossiya 1" telekanalına müsahibə verib.
Müsahibə "Vesti nedeli" proqramında göstərilib.
Proqramın aparıcısı jurnalist Dmitri Kiselyov qeyd edib ki, Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi haqqında qərar məntiqli qərar kimi qarşılanıb. D.Kiselyov deyib: "Mehriban Əliyeva onsuz da praktiki olaraq ölkənin bütün ictimai və siyasi həyatında iştirak edir, idarəçilik sahəsində zəngin təcrübəyə malikdir. Cəmiyyətdə onun nüfuzu şəksizdir. Mehriban Əliyeva son üç çağırış Azərbaycan parlamentinin deputatıdır, Heydər Əliyev Fonduna müvəffəqiyyətlə başçılıq edir, onun rəhbərliyi ilə 2012-ci ildə Bakıda "Eurovision" müsabiqəsi çox gözəl keçirilib, inişil isə tarixdə ilk dəfə Avropa Oyunları təşkil edilib. Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir".
Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva proqrama müsahibəsində bildirib ki, yeni vəzifədə Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ona ümid bəsləyən insanların etimadını doğruldacaq. Mehriban Əliyeva deyib: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb".
Azərbaycanın Birinci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı?" sualına cavabında deyib: "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa, məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var. Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam".
Mehriban xanım Əliyeva daha sonra deyib: "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm.
Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır – istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır".
"Rossiya 1" telekanalında göstərilən süjetdə Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, bu Fondun mədəniyyət və səhiyyə sahəsində həyata keçirdiyi irimiqyaslı layihələr, o cümlədən talassemiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı barədə ətraflı söhbət açılır. Vurğulanır ki, bu Dövlət Proqramının və talassemiyaya tutulmuş uşaqlar üçün ixtisaslaşdırılmış mərkəzin yaradılmasının təşəbbüskarı Milli Məclisin deputatı, parlamentdə işini xeyriyyəçilik fəaliyyəti ilə əlaqələndirən Mehriban Əliyeva olub.
Mehriban Əliyeva Rusiya telekanalına müsahibəsində deyib: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, beş nəvəm var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm. Əsla. İndiyə qədər bunu bacarmışam. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam".
Müxbirin "Sizin ağladığınız hallar olurmu?" sualına Mehriban xanım belə cavab verib: "Nadir hallarda, amma başqalarının yanında heç vaxt. Mənim 27 yaşım olanda anamı itirdim. Anamı itirəndə onun cəmi 53 yaşı var idi. O, inanılmaz dərəcədə gözəl, güclü, xoşbəxt qadın idi. Azərbaycanda ilk şərqşünas professor, Şərqşünaslıq İnstitutunun rəhbəri idi. Altı ay ərzində gözümün qabağında, qollarım üstündə bu insanı itirdim. Yəqin ki, əsas göz yaşlarımı o vaxt axıtmışam. Bu itki yəqin ki, məni çox möhkəmlətdi".
Birinci vitse-prezident sağlam, konstruktiv tənqidi eşitməyə hazır olduğunu vurğulayaraq deyib: "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, lakin öz ölkəsinə qarşı müxalifətdə olmaq lazım deyil. Bu, ən dəhşətli haldır. Mənim məqsədim ondan ibarətdir ki, belə deyək, hətta tənqidə ən çox meyil edən təbəqələrin də müəyyən müddətdən sonra tənqid üçün az əsası olsun".
Süjetdə qeyd edilir ki, Mehriban Əliyevanın Vətənində populyarlığı son dərəcə yüksək səviyyədədir. Üstəlik, onun tərəfdarları arasında milli və dini azlıqlar da var. Heydər Əliyev Fondu Azərbaycan xristianlarının dostudur, məbədləri bərpa etməyə, milli və mədəni mərkəzlər tikməyə kömək edir. Azərbaycanda rus dilinə də hörmət edirlər. Slavyan Universiteti ölkədə populyardır, Bakıdakı Rus Dram Teatrının tamaşaları daim anşlaqla keçir. Puşkinin və Tolstoyun dili ölkə rəhbərləri üçün az qala ana dili kimidir. Müxbirin "Nə vaxtsa bu ölkəyə rəhbərlik etmək, prezident olmaq barədə düşünmüsünüzmü? Bu, mümkündürmü?" sualının cavabında Birinci vitse-prezident deyib:
-Bilirsinizmi, mən bu barədə fikirləşməmişəm və fikirləşmirəm. Bəli, mən Azərbaycanın mənafelərini müdafiə edəcəyəm, bəli, mən Azərbaycan xalqının mənafelərini müdafiə edəcəyəm. Azərbaycan xalqı üçün xeyirxah işlər məhz budur. Odur ki, gələcəkdə nə olacağı barədə indidən fikir söyləmək tamamilə səmərəsiz məşğuliyyətdir.






# İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti işə başladı

Martın 1-də Pakistan İslam Respublikasının paytaxtı İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Sammit "Qurani-Kərim"dən ayənin oxunması ilə başlamışdır. İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə toplantısını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açmışdır.

Dövlətimizin başçısı yüksək qonaqpərvərliyə və İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitinin mükəmməl təşkilinə görə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifə minnətdarlığını bildirmişdir. Respublikamızın 2006-cı və 2012-ci illərdə İslam Əməkdaşlıq Təşkilatının iki Sammitinə ev sahibliyi etdiyini deyən Prezident İlham Əliyev bu təşkilata üzv ölkələrin hamısı ilə yaxşı münasibətlərə malik olan Azərbaycanın öz tərəfdaşları ilə həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə iqtisadi əlaqələrini gücləndirdiyini vurğulamışdır. Dövlətimizin başçısı Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatını mühüm beynəlxalq təşkilat hesab etdiyini, 2012-ci ildən İqtisadi Əməkdaşlıq Təşkilatının sədri kimi ölkəmizin bu qurumu gücləndirmək, onun dünya iqtisadi əməkdaşlığında iştirakını artırmaq və üzv ölkələr arasında çoxtərəfli tərəfdaşlığı təbliğ etmək üçün əlindən gələni əsirgəmədiyini bildirmişdir.



Sonra Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitinin sədri seçildiyini elan etmişdir.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin qarşılıqlı etimada və dəstəyə əsaslandığını vurğulamışdır. Dövlətimizin başçısı bunun əyani nümunəsi kimi, Azərbaycanın ərazisinin 20 faizini işğal edən Ermənistan ilə diplomatik münasibətlər qurmadığına görə Pakistana Azərbaycan xalqı adından bir daha minnətdarlığını çatdırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ağır nəticələrini, işğalçı Ermənistanın beynəlxalq hüquqa məhəl qoymamasını konkret faktlar əsasında ətraflı xarakterizə edən Prezident İlham Əliyev Pakistanın Xocalı soyqırımını rəsmi şəkildə tanıyan 10-dan çox dövlətdən biri olduğunu demişdir. Azərbaycanın müsəlman ölkələri arasında həmrəyliyə xüsusi əhəmiyyət verdiyini deyən dövlətimizin başçısı respublikamızda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edildiyini bildirmiş, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrə uğurlar arzulamışdır.

Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğulamış, Pakistana bu təşkilata sədrliyi dövründə uğurlar arzulamışlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# *Suvarma sistemlərinin modernləşdirilməsi zəruri vəzifə kimi qarşıda durur*

Yazın ılıq nəfəsi duyulur, yurdumuza bahar gəlir. Respublikamızın bütün bölgələrində tarla işlərinə başlanılıb. Bu il aqrar sahədə hədəflər daha böyükdür. Dövlət başçısının irəli sürdüyü vəzifələrin icra olunması istiqamətində ciddi tədbirlər görülür, zəruri addımlar atılır. Pambıqçılıq, tütünçülük, dənli və paxlalı bitkilərin əkin sahələri genişləndirilir, yeni torpaqlar əkin dövriyyəsinə daxil edilir. Məhsul istehsalının yüksək şəkildə təşkili bir çox digər amillərlə yanaşı, həm də suvarma işlərinin vaxtında və keyfiyyətlə aparılmasından asılıdır. Yay aylarında, suya tələbatın artdığı vaxtlarda təsərrüfatçılar ciddi sınaqla üz-üzə qalırlar. Yaxşı məhsul götürə bilməyən zəhmət adamının dilindən təkcə bir giley eşidirsən, - «sahəni vaxtında suvara bilmədim, məhsul zay olub getdi». Cari təsərrüfat ilində bu sahədə vəziyyət necə olacaq, indiyədək görülən tədbirlər suvarma işlərinin optimal müddətdə və keyfiyyətlə aparılmasına imkan verəcəkmi? Aşağıda bu suallara aydınlıq gətirməyə çalışacağıq.

**YAXŞI TƏMƏL OLANDA…**

Azərbaycan qədim suvarma əkinçiliyi ölkəsidir. Burada minilliklər boyu bir sıra mədəni bitkilər əkilib, becərilib. Zəngin iqlim qurşağına malik olan ölkəmizdə günəş şüalarının bolluğu suvarmanı zəruri hala çevirib. Ötən əsrin 70-ci illərindən Azərbaycan iqtisadi yüksəlişə və intibah dövrünə qədəm qoymuş və bu sırada kənd təsərrüfatı öncül mövqeyə çıxmışdır. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi sovetlər dönəmində meliorasiya fondu iki dəfədən çox, torpaqların məhsuldarlığı iki dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı bir neçə dəfə artmışdır. Ulu öndər tərəfindən əsası qoyulmuş bir çox layihələri cənab prezident İlham Əliyev uğurla davam etdirmiş, meliorasiya və irriqasiya tədbirlərinin həcmi ildən-ilə genişləndirilmişdir. Son 12 ildə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bütün maliyyə mənbələrindən bu sahəyə qoyulan kapital qoyuluşları 21 dəfəyədək artmışdır. Son illər icra olunan meliorasiya və irriqasiya tədbirlərini sıralasaq, uzun bir siyahı alınar.

Belə ki, ötən illər ərzində Xanbulançay su anbarında, Ağstafa magistral kanalında, Mil-Muğan və Samurçay hidroqovşaqlarında, Yuxarı Qarabağ kanalında, Göygöl rayonunda Gəncəçay baş suqəbuledici qurğusunda, 473 ədəd subartezian qurğusunda, Zərdab, Kürdəmir, Ağsu, İmişli, Yevlax, Sabirabad, Neftçala, Füzuli, Şamaxı və Xızı rayonlarının ərazisindəki 23 km nov kanallarında, həmçinin ayrı-ayrı rayonların qış otlaq sahələrində yerləşən 187 km boru xəttində, dağ çaylarında 6,1 km uzunluğunda daş-beton mühafizə bəndlərində, 278 km kollektor-drenaj şəbəkələrində, 217 ədəd hidrotexniki qurğularda və bir sıra digər obyektlərdə əsaslı təmir-bərpa və yenidənqurma işləri həyata keçirilmişdir.

Son beş ildə uzun müddət istismarda olmuş, fiziki və mənəvi cəhətdən köhnəlmiş 235 ədəd stasionar və 112 ədəd üzən nasos stansiyaları müasir tələblərə uyğun şəkildə yenidən qurulmuş, Kür və Araz çayları boyunca 876 km uzunluğunda mövcud torpaq mühafizə bəndlərində əsaslı hündürləndirmə, genişləndirmə və möhkəmləndirmə işləri görülmüş, çayların təhlükəli yerlərində 9,2 km uzunluğunda daş-beton sahillərtikmə işləri aparılmışdır.

İslam İnkişaf Bankının maliyyə dəstəyi ilə Samur-Abşeron suvarma sistemlərinin Xanarx kanalının (uzunluğu 67, 2 km) tikintisi, Dünya Bankının krediti ilə Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğusunun bərpası, Samur-Abşeron kanalının uzunluğu 185,7 km olan təsərrüfatlararası kanallarının yenidən qurulması işləri 2007-ci ildə başa çatdırılmışdır.

Eyni zamanda, Dünya Bankının krediti ilə respublikanın 500 min hektar suvarılan ərazisindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan Kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə tamamlanmışdır. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması ilə 150 min hektar sahədə su təminatının yaxşılaşdırılması, 30 min hektara yaxın yeni suvarılan sahələrin əkin dövriyyəsinə daxil edilməsi təmin edilmişdir. 2014-cü ildə Xızı rayonunda 12579 hektar, Siyəzən rayonunda 12137 hektar torpaq sahəsində meliorasiya tədbirlərinin aparılmasına başlanılmışdır. Şabran rayonunda isə 2016-cı ildə 1564 hektar yeni suvarılacaq torpaqlar istifadəyə verilmiş, 1000 hektar sahədə isə suvarma sistemi yaxşılaşdırılmışdır.



**İRİ LAYİHƏLƏR REALLAŞIR**

Tikintisinə 2009-cu ildə başlanmış Şəmkirçay üzərində ümumi sututumu 164,5 milyon kubmetr olan Şəmkirçay su anbarlarının və bununla birlikdə Su Elektrik Stansiyasının, həmçinin su anbarından sugötürən, ümumi uzunluğu 60565 metr olan magistral kanalın tikinti işləri 2015-ci ildə tamamlanaraq istismara buraxılmışdır. Belə bir kompleks layihənin ərsəyə gəlməsi ilə Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarının 54 min hektar mövcud suvarılan torpaqlarının su təminatının yaxşılaşdırılmasına və 17 min hektara yaxın yeni sahələrin istifadəyə verilməsinə imkan yaranmış, eləcə də Gəncə, Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə saniyədə 1,6 kubmetr içməli su verilməsi təmin edilmişdir.

2016-cı ildə tikintisi tamamlanmış, ümumi su tutumu 20 milyon kubmetr olan Tovuzçay su anbarına yığılan su hesabına Tovuz və Şəmkir rayonlarının 20 min hektara yaxın əkin sahəsinin su təminatı yaxşılaşmış, 300 hektar yeni suvarılan torpaqlar suvarma suyu ilə təchiz edilmişdir.

Cəlilabad rayonunda tikintisi 2016-cı ildə tamamlanmış, ümumi sututumu 1,7 milyon kubmetr olan Göytəpə su anbarının açılışının həyata keçirilməsi ilə 661 hektar yeni suvarılacaq sahələrin suvarma suyu ilə təminatı həll edilmişdir.

Ölkəmizdə iri aqroparkların tikintisi davam etdirilir. Bununla əlaqədar Şəmkirçay su anbarından Şəmkir Aqroparkına 543 hektar, Samur-Abşeron su anbarından Yalama Aqroparkına 573 hektar sahələrin, həmçinin Yuxarı Mil kanalının 15,3 kilometrlik hissəsinin tikintisinin başa çatması nəticəsində Füzuli, Beyləqan və Ağcabədi rayonlarının ərazisində 10,6 min hektar taxılçılıq təsərrüfatlarının, Neftçala rayonunda 19,3 min hektar torpaq sahəsinin suvarılması təmin ediləcək. Yuxarı Şirvan kanalından su götürən və uzunluğu 28 km olan Hacıqabul magistral kanalının tikintisi ilə rayonun Patar və Qarasu kəndlərinin 3212 hektar yeni suvarılacaq torpaq sahələrinin suvarma suyu ilə təminatı həll edilmişdir.

Hazırda Sabirabad, Biləsuvar rayonlarında 16 min hektar az məhsuldar torpaq sahələrinin suvarılması üçün nasos stansiyası tikilir. Bundan başqa, Qazax, Kürdəmir, Goranboy, Zərdab və digər rayonların 2862 hektar torpaq sahələrini suvarma suyu ilə təmin edən nasos stansiyaları və kanalların tikintisi başa çatdırılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ehtiyat fondundan ayrılan vəsait hesabına 2013-2015-ci illər ərzində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin suya olan tələbatının ödənilməsi məqsədilə əhalisinin sayı 1,1 milyondan çox olan 35 şəhər və rayonun 458 yaşayış məntəqəsində 657 subartezian quyusu qazılıb. Eyni zamanda, 2016-cı ildə qazılması nəzərdə tutulan 300 quyudan 202-sində qazma işləri tamamlanıb.

Dünya Bankının ayırdığı kreditlər 140 min hektar sahənin suvarılmasına xidmət edən Araz çayı üzərindəki Bəhramtəpə hidroqovşağının, həmçinin respublikanın 9 rayonu və Naxçıvan Muxtar Respublikasının Babək və Şərur rayonlarının 52 min hektar ərazisində suvarma-drenaj şəbəkəsinin təmir-bərpa işləri 2010-cu ildə başa çatdırılıb. 2011-ci ildən isə daha 15 rayonda 85 min hektar ərazinin suvarma-drenaj şəbəkəsinin təmir-bərpa işlərinə başlanılıb. Layihə başa çatmasa da, indiyədək nəzərdə tutulandan artıq, yəni 105 min hektara yaxın ərazinin suvarma və drenaj şəbəkəsinin bərpası və yenidən qurulması həyata keçirilib. Bütün maliyyə mənbələrindən ayrılan vəsait hesabına 2004-2016-cı illərdə respublikanın 24 rayonunda sel və daşqın təhlükəsi olan 41 çayda 183427 metr sahilbərkitmə tədbirləri görülüb.

**EKSTENSİV YOLDAN İNTENSİV İNKİŞAFA DOĞRU**

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məlumatına görə, kənd təsərrüfatı məhsulları istehsalının ekstensiv inkişafına nail olmaq məqsədilə su ehtiyatları nəzərə alınmaqla, mövcud su anbarları, həmçinin yeni layihələr reallaşdırmaqla 280 min hektar suvarılan torpaq sahəsini əkin dövriyyəsinə daxil etmək və 350 min hektar əkin sahəsinin su təchizatını yaxşılaşdırmaq olar.

Eyni zamanda, Böyük Qafqazın dağ çaylarında tikintisi nəzərdə tutulan su anbarlarından əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi ilə yanaşı, Oğuz-Qəbələ-Bakı su kəmərinə əlavə su verilməsi mümkün olacaqdır. Bütün bunlarla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının intensiv yollarla inkişaf etdirilməsi, sudan və torpaqdan səmərəli istifadə məqsədilə suvarma sisteminin müasir standartlar səviyyəsində modernləşdirilməsi, torpaq məcralı kanalların beton üzlüyə alınması, yeni suvarma üsullarının və texnoloji yeniliklərin tətbiqi istiqamətində zəruri addımların atılmasına ehtiyac duyulur.

Respublikamızda cənab prezidentin bilavasitə rəhbərliyi ilə reallaşdırılan aqrar islahat proqramları, pambıqçılığın, tütünçülüyün, çayçılığın, fındıqçılığın, üzümçülüyün, baramaçılığın və s. inkişaf etdirilərək üstün mövqelərə çıxarılmasını, istixana təsərrüfatlarının və aqroparklar şəbəkəsinin genişləndirilməsini özündə ehtiva edir. Bütün bunlar isə ölkə miqyasında suvarma sistemlərinin başdan-başa modernləşdirilməsini, yüksək standartlar səviyyəsinə gətirilib çıxarılmasını vacib vəzifə kimi qarşıya qoyub.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# PREZİDENT MİKAYIL MÜŞFİQİN HEYKƏLİNİN GÖTÜRÜLMƏSİNDƏN NARAHATDIR

**"Belə əməlləri törədənlər ciddi şəkildə cəzalanacaqlar"**

"Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən olan Mikayıl Müşfiqin abidəsinin sökülməsi prezidenti narahat edib. İlham Əliyev məsələnin hərtərəfli araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı tapşırıq verib", - prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

O bildirib ki, İlham Əliyevin prezidentliyi dövründə onlarla tarixi və mədəniyyət abidəsi əsaslı bərpa olunub. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Bülbül, Rəşid Behbudov və digər tanınmış şəxsiyyətlərə abidələr qoyulub:

"Prezident tarixi əhəmiyyət kəsb edən tikililərin, mədəniyyət abidələrinin qanunvericiliyə uyğun şəkildə aidiyyəti dövlət orqanları ilə razılaşdırmadan, icazəsiz sökülməsini yolverilməz hesab edir. Belə əməlləri törədənlər ciddi şəkildə cəzalanacaqlar".

Fevralın 27-də şair Mikayıl Müşfiqin büstünün İnşaatçılar prospekti, "Statistika dairəsi" adlanan ərazidəki parkdan götürüldüyü məlum oldu. "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin Layihə İdarətmə Qrupunun rəhbəri Valeh İbrahimov buna səbəb kimi ərazidə yolun genişdirilməsini göstərdi. İş bitəndən sonra heykəlin yerinə qoyulacağını bildirdi.

Mədəniyyət Nazirliyi isə açıqlama yayaraq bildirdi ki, şirkət şairin abidəsinin götürülməsi ilə bağlı onların razılığını almayıb.

*Heykəlin müəllifi Azərbaycan Respublikasının əməkdar rəssamı, heykəltəraş Münəvvər Rzayevadır. Heykəl 1970-ci ildə qırmızı qranitdən hazırlanıb.*

**Nərgiz Paşayeva: "Bu, barbarlıqdır"**

Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva "Azəravtoyol" ASC tərəfindən paytaxtın İnşaatçılar prospektində, "Statistika dairəsi" adlanan ərazidə nakam şair Mikayıl Müşfiqin heykəlinin sökülməsini kəskin pisləyib.

Professor Paşayeva haqqin.az-a açıqlamasında bunları deyib: "Bu, vandalizim və barbarlıqdır. Böyük şairin xatirəsinə qarşı törədilmiş günahdır və təhqirdir".



N.Paşayeva müvafiq dövlət orqanlarını və ictimaiyyəti bu vandalizm aktına təcili müdaxilə etməyə, habelə bu barbarlığa yol verən "Azəravtoyol" rəhbərliyini cəzalandırmağa çağırıb.

"İqtisadiyyat" qəzetinin kollektivi də böyük şair Mikayıl Müşfiqin büstünün sökülməsindən narahatdır və bu hadisəni pisləyir.

**Mikayıl Müşfiqin büstünün sökülməsinə görə məsuliyyət daşıyan şəxslər cəzalandırılıb**

Bakı şəhərinin Yasamal rayonu ərazisində İnşaatçılar və Nərimanov prospektlərinin kəsişməsində (Statistika dairəsi) aparılan yenidənqurma işləri zamanı 8 N-li Xüsusi Təyinatlı Yol İstismarı MMC-nin iş icraçısı "Azəravtoyol" ASC-nin rəhbərliyinə və çalışdığı MMC-nin direktoruna məlumat vermədən görkəmli şair Mikayıl Müşfiqin ərazidə yerləşən büstünü çıxarıb.

"Azəravtoyol" ASC-dən bildiriblər ki, üzərinə düşən əmək funksiyasını lazımi qaydada yerinə yetirməyərək, kobud qanun pozuntusuna yol verdiyinə görə MMC-nin iş icraçısı Rəhimov Ramiz Tapdıq oğlu tutduğu vəzifədən azad edilib, 8 N-li Xüsusi Təyinatlı Yol İstismarı MMC-nin direktoru Şirinov Əliheybət Balakişi oğluna xəbərdarlıq edilib, baş mühəndis Hüseynov Yuris Xələf oğluna isə töhmət verilib.

"Azəravtoyol" ASC görkəmli şair Mikayıl Müşfiqin büstünün çıxarılması ilə bağlı ictimaiyyətə və KİV-ə vaxtında məlumat verilməməsi nəticəsində yaranan haqlı narahatlığa görə üzr istəyir.

**Unudulmaz şair dünyadan nakam gedəcəyini sanki duyurmuş kimi qəlbindəki sonsuz sevgini misralara, şeirlərə, poemalara çevirirdi:**

**Heyf, ömür qısa, arzu**
**genişdir,**
**Kim bu qayğı ilə**
**titrəməmişdir?**

**Bu misraların müəllifinin ömür kitabını vərəqləyərkən gəncliyinin ən gözəl çağında həyatı tərk etmiş bir insanın çoxsaylı əsərlərə imza atmağa necə nail olmasına heyrətlənməyə bilmirsən. Şübhəsiz, məsələ təkcə əsərlərin sayında deyildir. Hər biri şedevr hesab olunmağa layiq bu şeirlərin hər misrası, hər bəndi həyatdan nakam köçmüş müəllifin özü ilə oxucusu arasında yaratdığı əbədi mənəvi körpüdən xəbər verir. O körpü ki, şairin bu günümüz üçün də müasir olan həyat ideallarını bizlərə çatdırmaqdadır. "Yenə o bağ olaydı...", "Oxu, tar!", "Sənə qurban", "Əbədiyyət nəğməsi", "Həyat sevgisi", "Ürək" və digər bu kimi şeirlər hər birimizin qəlbinə yaxındır.**

**Yenə o bağ olaydı, yenə**
**yığışaraq siz**
**O bağa köçəydiniz.**
**Biz də muradımızca**
**fələkdən kam alaydıq,**
**Sizə qonşu olaydıq.**
**Yenə o bağ olaydı,**
**səni tez-tez görəydim,**
**Qələmə söz verəydim.**
**Hər gün bir yeni nəğmə,**
**hər gün bir yeni ilham,**
**Yazaydım səhər axşam.**
**Arzuya bax sevgilim,**
**tellərindən incəmi?**
**Söylə ürəyincəmi?**




# Dollar/manat məzənnəsi neftin qiymətindən asılı deyil

Bunu Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlı deyib.

O, bildirib ki, Azərbaycanda məzənnə ilə neft qiymətləri arasında əlaqə axtarmaq doğru deyil:

"Jurnalistlər və bizim bir çox deputatlar məzənnə ilə neft qiymətləri arasında əlaqə axtarırlar. Axtarmayın, tapa bilməyəcəksiniz. Çünki məzənnə ilə neft qiymətləri arasında əlaqə yoxdur. Bu bilərəkdən belə qoyulub. 1998-ci ildə biz Neft Fondunu yaradanda bilirdik ki, bir il ərzində ölkəmizə ÜDM-in 5 qatı həcmində valyuta daxil olacaq. Ona görə biz həmin valyutanı iqtisadiyyatdan sterilizasiya edirdik, həmin valyuta Neft Fonduna gedirdi. Həmin dollar kütləsi bazara çıxmadığına görə, onun məzənnəyə təsiri yoxdur. İndi dollar bazara necə çıxır – Neft Fondu büdcə öhdəliklərini yerinə yetirmək üçün dollardakı vəsaiti bazara çıxarır, manata çevirir və büdcəyə transfer edir. Bu da yenə neftin qiymətləri ilə əlaqəli deyil. Neft Fondunun büdcə ödənişlərinin rəvanlığına xidmət etmək, təmin etmək öhdəliyi var. Neft Fondu da büdcə qarşısındakı öhdəliyini Mərkəzi Bankla, Maliyyə Nazirliyi ilə müəyyən edərək, lazım olan vaxtda, lazımı məbləğlərdə dollar satır.

Neftin qiymətinin bizim iqtisadiyyatın dayanıqlığına təsiri var. Amma neftin qiymətinin birbaşa dolların məzənnəsinə təsiri yoxdur", - o deyib. Rusiyada neft qiymətləri dollar/rubl məzənəsinə təsir edir. Rusiyada neftdən gələn gəlirlər birbaşa onların fonduna getmir:

"Rusiyada tələb var ki, gələn vəsaitləri bazarda o fonda satsınlar. Və iki fondu var: büdcənin sabitləşməsi üçün fond və yığım üçün fond. Stabilləşmə fondu ehtiyac olan məbləğdə vəsait aldıqdan sonra qalanı yığım fonduna yönəldilir. Neftin qiyməti artanda onların ödəmələri də artır. Ödəmələri artanda onlar gəlir kimi əldə etdikləri dollardan çıxardıb bazarda satmalıdırlar. Neftin qiyməti qalxıb, çoxlu dollar əldə ediblər, eyni zamanda, çoxlu da ödəmə etməlidirlər. Ödəmələr adətən rubl ilə olur. Buna görə bazarda çoxlu dollar satmalıdırlar. Bazara da çoxlu dollar çıxan zaman məzənnə düşür. Ona görə neftin qiyməti qalxanda rublun da qiyməti qalxır".






## В Azer Turk Bank праздничные скидки




По случаю Международного женского дня - 8 марта и праздника Новруз, Azer Turk Bank проводит для клиентов специальную кампанию «Праздничные скидки». В течение марта, можно будет заказать дебетовые карты MasterCard Gold, MasterCard Platinum, MasterCard Business, Visa Gold или Visa Platinum независимо от срока действия со скидкой в 50 процентов. Желающие заказать карты могут подойти с документом, удостоверяющим личность, в отделения и филиалы банка, а также заказать карту.

## Азербайджан увеличил экспорт газа в Турцию

Азербайджан в 2016 году поставил в Турцию 6,48 миллиарда кубометров газа против 6,17 миллиарда кубометров, поставленных годом ранее, говорится в отчете, размещенном на сайте Управления по регулированию энергетического рынка (EPDK) Турции.
В 2015 году Азербайджан поставил в Турцию 6,17 миллиарда кубометров природного газа против 6,07 миллиарда кубометров, поставленных в 2014 году. По данным отчета, в прошлом году Турция импортировала 46,35 миллиарда кубометров газа, из которых 38,72 миллиарда кубометров были импортированы по трубопроводам, а 7,63 миллиарда кубометров пришлись на импорт СПГ. Доля Азербайджана в общем импорте Турцией газа в 2016 году составила 13,98 процента.
Турция импортирует газ из Азербайджана по Южнокавказскому газопроводу (Баку-Тбилиси-Эрзурум). Турция имеет контракт на ежегодную закупку 6,6 миллиарда кубометров газа с азербайджанского морского газоконденсатного месторождения "Шах Дениз".

## Доходы регионов России выросли на 20%

Налоговые и неналоговые доходы российских регионов в январе – феврале выросли на 20% по сравнению с показателем за аналогичный период 2016 г., Первый период текущего года говорит о том, что доходы бюджетов регионов по-прежнему продолжают расти достаточно высокими темпами. Общий объем налоговых и неналоговых доходов за период с января по 20 февраля вырос более чем на 20% по сравнению с соответствующим периодом прошлого года». За 2016 г. дефицит региональных бюджетов уменьшился со 170 млрд до 12,5 млрд руб., но долговая нагрузка еще остается значимой.Сокращается и число проблемных регионов, где госдолг значительно превышает доходы, но в целом долговая нагрузка остается очень и очень значимой, очень большой.

*Международный женский день - это праздник всех женщин, ставших творцами истории. Неудивительно, что женщины стали первопроходцами во многих областях - вот только некоторые факты, объединенные женским «первая»*



## Первый вице-президент Азербайджана Мехрибан Алиева



*Первая леди Азербайджана Мехрибан Алиева стала первым вице-президентом страны. Указ о назначении подписал президент Ильхам Алиев. Мехрибан Алиевой 52 года. До своего назначения она возглавляла Фонд Гейдара Алиева и Фонд культуры Азербайджана. Активно занимается благотворительностью. В политике не новичок. Мехрибан Алиева трижды побеждала на выборах в парламент от правящей партии. Ее называют одной из самых стильных женщин-политиков в мире.*
*Мехрибан Алиева активно поддерживает спорт. В 2015 году она возглавила организационный комитет первых в истории Европейских игр в Баку.*

## Награждены самые инновативные женщины Азербайджана




Церемония награждения "AWITA 2017 - AZERBAIJAN WOMEN in IT AWARD", которая была проведена 26 января в Международном центре мугама и посвящена успешным инновациям, полученным женщинами в сфере информационных технологий Азербайджана, стала самым крупным мероприятием, относящимся к борьбе против гендерного неравенства в сфере технологий в Азербайджане.
Женщины, отличившиеся профессиональными достижениями и значимыми результатами в этом секторе, были награждены по 15 номинациям (Новатор года, Программист года, Студент года в сфере IT, Вклад в сферу IT в отдаленных регионах и т.д.). Одним из активных спонсоров церемонии награждения “AWITA 2017”, собравшего 100 самых влиятельных лидеров сферы IT Азербайджана, которое было претворено в жизнь при поддержке Клуба "Азербайджанская женщина в IT" и организации Femmes Digitales, стал Azer Turk Bank.

## Azercell продолжает оказывать поддержку образованию

Azercell Telecom продолжает оказывать поддержку студентам, в рамках программы Карьерной Академии SABAH. На этот раз сотрудники компании прошли двухдневный тренинг для студентов, в рамках проекта Зимняя Школа Карьеры SABAH, в городе Губа. Участники с большим интересом встретили тренинг курсы, проведённые руководителем отдела Бизнес Партнерства департамента Подбора Персонала Azercell Telecom Айтен Фарзалиевой и специалистами по Приему на Работу Севиндж Теймуровой, Вахидой Оруджевой и Айсель Эйнуллаевой.
На тренинге, где участвовало более 100 студентов, были представлены и обсуждены такие темы, как планирование карьеры, создание резюме и CV, подготовка к интервью, навыки презентации и т. п.
Участники тренинга поделились своими впечатлениями и приобретенными навыками. Шахин Халилов, АТУ: “После тренинга я осознал, насколько неправильно было составлено моё CV. Я получил реальную возможность заново оформить его. Мы также подробно изучили процесс успешного прохождения интервью. Сейчас я полностью готов “атаковать вакантные позиции.”
Афсана Фарзалиева, АГЭУ: “Благодаря тренингу мы научились правильно составлять CV и, после этого занятия, нам стало ясно по каким причинам нас могут не пригласить на интервью или почему мы можем неуспешно пройти собеседование. На тренинге мы также познакомились с типами и практическими этапами интервью. Считаю, что теперь мы можем намного продуктивнее искать возможности на рынке труда!”
По завершению двухдневного тренинга участникам были вручены сертификаты, а тренерам - благодарственные дипломы.
Отметим, что Azercell и группы SABAH имеют широкий спектр сотрудничества. В прошлом году 50% мест, в рамках Студенческой Программы Azercell по городу Баку, были выделены для студентов групп SABAH. Помимо этого, среди 5 групп, которые были отобраны по результатам шестимесячной инкубационной программы, проводимой в сотрудничестве с Центром Предпринимательства и Инноваций Barama, состояла из студентов группы SABAH.
В конце прошлого года Azercell провела для студентов групп SABAH ознакомительный тур по Azercell Plaza и короткие информационные сессии по темам «Знакомство с GSM Технологиями», «Управление продуктами», «Создавай свой Бренд».



## Чтоб только в жизни радость знать!



Учитель - это, прежде всего призвание. И Вы способны доказать что быть учителем не просто почетно, но еще и прекрасно. Немного есть на свете учителей таких, как Вы -добрых, мудрых, справедливых и очень терпеливых! Вы- настоящий учитель и очень красивая женщина!
И все же в первую очередь Вы женщина. Добрая, понимающая, относящаяся, к своим ученикам так, так к собственным детям. Зачастую вы уделяли нам внимания гораздо больше, чем собственной семье. Милая, любимая учительница Любовь Михайловна, поздравляю Вас с днем 8 марта и желаю, чтобы начала весны превратилось для Вас в расцвет новой прекрасной жизни. которую Вы, без сомнения, заслуживаете! Ведь Вы озаряйте мир не только улыбкой, но и делом.

Средь женщин важных и прекрасных
Есть в жизни каждой из нас
Учительница! В женский праздник
Я счастлива, поздравить Вас!
***
Женский труд у педагога
И так приятно пожелать –
Чтоб светлою была дорога
Чтоб только в жизни радость знать!
***
Вы идеалом стали дивным
и для своих учеников
Всегда останетесь красивой
Достойной самых теплых слов!

## Внешний госдолг Беларуси в январе уменьшился



Внешний государственный долг Беларуси по состоянию на 1 февраля составил $13,5 млрд, уменьшившись с начала года на $95,7 млн, или на 0,7% (с учетом курсовых разниц), сообщили БЕЛТА в Министерстве финансов. В январе были привлечены внешние государственные займы на $36,8 млн, в том числе $21,8 млн - правительства и банков Российской Федерации, $6,7 млн - банков КНР, $8,3 млн - МБРР. Погашение внешнего государственного долга с начала года составило $140 млн, из которых $44,7 млн - правительству Российской Федерации, $95,3 млн - банкам КНР.
Государственный долг Беларуси на 1 февраля составил Br36,6 млрд и уменьшился по сравнению с началом 2017 года на Br0,4 млрд, или на 1%. Внутренний государственный долг составил Br10,4 млрд, увеличившись с начала года на Br0,1 млрд (с учетом курсовых разниц), или на 1,3%. За январь размещено внутренних валютных государственных облигаций для юридических и физических лиц на $68,9 млн. Погашено валютных государственных облигаций для физических лиц на $18,2 тыс.

KİVDF

«Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün»

*Regionların sosial–iqtisadi inkişafının təşviq edilməsi istiqaməti üzrə*

# AQRAR BÖLMƏ YENİ ÇAĞIRIŞLAR VƏ REALLIQLAR MÜSTƏVİSİNDƏ



Ölkə əhalisinin təxminən yarısının bölgələrdə yaşadığını nəzərə alsaq, iqtisadi strukturda aqrar bölmənin payının və çəkisinin böyük olduğunu izah etməyə ehtiyac qalmır. Bu sahənin inkişafını strateji hədəf seçən cənab prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci il «Kənd təsərrüfatı ili» elan edilmişdir. 2016-cı il bütün qlobal çətinliklərə rəğmən, "Aqrar islahatlar ili" kimi tarixə düşmüşdür. Nəticədə, 2016-cı ildə kənd təsərrüfatında 2,6 faiz artım əldə olunmuş, il ərzində faktiki qiymətlərlə 5 milyard 305,2 milyon manatlıq məhsul istehsal edilmişdir. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər fonunda aqrar sahədə azad sahibkarlığın və liberal iqtisadiyyatın dirçəlişi və inkişafı meyilləri özünü göstərmiş, bu isə öz növbəsində regional yüksəlişə və tərəqqiyə yol açmışdır. Ölkə başçısının aqrar sahədə müəyyən etdiyi strateji xətt konkret hədəfləri və istiqamətləri özündə ehtiva edir.

### «AĞ QIZIL»IN ƏVVƏLKİ ŞÖHRƏTİ ÖZÜNƏ QAYIDIR

Dövlət başçısının böyük önəm verdiyi perspektivli sahələrdən biri də pambıqçılıqdır. Ötən əsrin 70-ci illərində, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmlərdə pambıq istehsalı ildə 2 milyon tona çatmışdı.

Kəndlərimiz, qəsəbələrimiz, yaşayış məntəqələrimiz abadlaşdı, fərdi yaşayış evləri tikildi, sosial həyatda, əhalinin yaşam tərzində misli görünməmiş təbəddülat baş verdi. 90-cı illərdə bu sahə tamamilə unuduldu, uzun tənəzzül yaşandı. Sonrakı illərdə pambıqçılığın dirçəlməsinə obyektiv amillər mane olurdu. Dünya bazarında xammalın qiyməti aşağı düşmüşdü, ənənəvi bazarlar itirilmişdi, tekstil sənayesi öz fəaliyyətini dayandırmışdı…

2016-cı ildə dövlət başçısı tərəfindən «Böhran şəraitində inkişaf» strategiyası qəbul olundu və bilavasitə onun nəzarəti, diqqəti və yaranmış vəziyyətlə əlaqədar müdaxiləsi, müsbət təşəbbüslərin dəstəklənməsi öz real nəticəsini verməyə başladı. 2016-cı ildə əkinin iqlim şəraiti ilə əlaqədar gecikməsinə baxmayaraq, müsbət nəticələr əldə olundu. Əgər 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdisə, 2016-cı ildə pambıq əkin sahələri 51 min hektara çatdırıldı. 2015-ci ildə 35 min ton pambıq istehsal edilibsə, ötən il təxminən 90 min tona yaxın məhsul götürülüb. Bu il pambıq əkini ilə bağlı ciddi irəliləyiş baş verəcək. Belə ki, əkin sahələri genişləndirilərək, 120 min hektara çatdırılacaq. Lakin bu da son hədəf deyil. Vəziyyətlə əlaqədar rəqəmlər artan dinamikaya doğru dəyişə bilər. Bunun üçün zəruri tədbirlər görülür, lazımi texnika, aqrotexnika avadanlıqlar, gübrələr alınır, yeni torpaqlar əkin dövriyyəsinə daxil edilir, suvarma sistemləri yenilənir. Təkcə bu il icra olunacaq tədbirlər nəticəsində 200 minə yaxın insan daimi və mövsümi işlərə cəlb olunacaq. Həmçinin, subsidiyaların həcmi də artırılacaq, bir sıra digər stimullaşdırıcı tədbirlər həyata keçiriləcək. Hazırda respublikamızın 27 rayonunda pambıq becərilir və cari ildə ölkə üzrə 200 min tondan artıq pambıq tədarükü nəzərdə tutulur. Bununla paralel olaraq, emal müəssisələrinin yaradılması istiqamətində də zəruri addımlar atılır. Mingəçevirdə cənab prezident tərəfindən ötən il təməli qoyulan tekstil sənaye kompleksində tikinti işləri davam etdirilir. Həmin kompleksin istifadəyə verilməsi minlərlə yeni iş yerlərinin açılmasına, Azərbaycan markalı malların dünya bazarlarına çıxışının təmin olunmasına imkan verəcəkdir. Pambıqçılıqda canlanma və yüksəliş dalğası bütün ölkəni bürüyəcək. Çünki zəhmət adamları bunu çoxdan arzulayırdılar. Bu sahədə Azərbaycanda həm zəngin təcrübə, zəruri potensial, həm də böyük maddi maraq vardır. «Ağ qızıl»ın əvvəlki şöhrəti özünə qayıdır. Ən ürəkaçan məqam da budur ki, hər bir əməkçi, fermer, sahibkar ölkə prezidentinin şəxsində böyük dövlət dəstəyi görür, hiss edir. Belə olduqda xariqələr yaratmaq olar.

### TÜTÜNÇÜLÜKDƏ ZƏNGİN ƏNƏNƏ VƏ BÖYÜK POTENSİAL VARDIR

Azərbaycan dövlətinin prioritet elan etdiyi sahələrdən biri də tütünçülükdür. Son vaxtlar cənab prezident İlham Əliyevin tapşırığına əsasən, tütünçülüyə marağın stimullaşdırılması tədbirləri həyata keçirilmiş, fermerlərə güzəştli kreditlər və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanları yaradılmışdır. Görülən tədbirlər bu sahədə məşğulluq səviyyəsini əhəmiyyətli dərəcədə artırmış, tütünçülüklə məşğul olanların sayı ötən illə müqayisədə iki dəfədən çox artmışdır. Tütünçülüyün elmi əsaslarla inkişaf etdirilməsində Əkinçilik Elmi-Tədqiqat İnstitutu mühüm rol oynayır. Belə ki, institutda bütün seleksiya toxumçuluğu, becərmə və qurutma texnologiyası üzrə tədqiqat işləri aparılır və geniş sahələrdə əkilərək respublikamızın ümumi tütün sahəsinin 70 faizini təşkil edir. Vaxtilə dünyada mövcud olan 8 tütün tipindən 4-ü Azərbaycanda becərilmişdir. Sovetlər dönəmində hər il ətirli və qiymətli sortlardan 3 min hektar, yarıətirli «Trapezond» tipli sortlardan 1000 hektar, iriyarpaqlı sortlardan 12 min hektar, «Virciniya» tipli sortlardan isə 900 hektar əkilib becərilirdi. Lakin bu qədər əkin sahələrinin olmasına baxmayaraq, becərmə üçün lazım olan torpaq-iqlim şəraiti, bioloji xüsusiyyətlər, qurutma texnologiyası nəzərə alınmırdı, nəticədə aşağı keyfiyyətli məhsul istehsal olunurdu. İndi köhnə üsullarla məhsul istehsal etməklə bazarlara çıxış əldə etmək çox çətindir. Bunun üçün fermerlər arasında geniş maarifləndirmə aparılmalıdır. Məsələn, «Virciniya» sortları hektara 18 min, iriyarpaqlı sortlar 48 min, xırdayarpaqlı sortlar isə 100-110 min ədəd bitkinin əkilməsini tələb edir. Hər bir sort üçün spesifik becərmə əməliyyatları aparılmalıdır. «Virciniya» və «Berley» sortlarının yarpaqları açıq günəş altında qurudulduqda keyfiyyətini itirir. Xammal xüsusi kameralarda qurudulduqda isə qurutma müddəti azalır və məhsul öz keyfiyyətini saxlayır. Azərbaycanda tütünçülüyün intensiv inkişaf yoluna çıxarılması üçün zəngin ənənə və böyük potensial vardır.

Xüsusilə, Azərbaycanın şimal-qərb rayonlarında əla növ tütün yetişdirmək üçün əlverişli torpaq-iqlim şəraiti mövcuddur. Yaxın bir neçə il ərzində tütün əkin sahələri 3 min hektardan 16 min hektara çatdırılacaq.

Bütün ehtiyat mənbələrini hərəkətə gətirməklə bu rəqəmi bir neçə dəfə artırmaq olar. Tütünçülük valyuta gətirən sahə olduğuna görə istehsalın həcminin qarşıda duran hədəflərə çatdırılması on minlərlə yeni iş yerləri, minlərlə ailənin xoş güzəranının və firavan həyatının təmin edilməsi deməkdir. Keçən il respublika üzrə 3500 ton quru tütün tədarük edilib. Bu il isə bu rəqəm 10 min tonu ötüb keçəcək.

### ÜZÜMÇÜLÜK ƏMƏKTUTUMLU VƏ RENTABELLİ SAHƏDİR

Azərbaycanda üzümçülüyün tarixi minilliklərin dərin qatlarına gedib çıxır. Bu qiymətli nemətin istehsalı ötən əsrin 70-ci illərində misli görünməmiş yüksəliş yoluna çıxmış, illik məhsul istehsalı 2 milyon tona çatmışdı. Bu, hər şeydən öncə, ulu öndər Heydər Əliyevin Azərbaycan respublikasına rəhbərlik etdiyi illərdə onun həyata keçirdiyi uğurlu iqtisadi siyasətlə bağlıdır. Burada əsas məqsəd respublikanın təsərrüfat quruculuğunda mövcud olan tənəzzülün və durğunluğun qarşısını almaqla insanların geniş anlamda məşğulluğunu təmin etməkdən ibarət idi. Üzümçülük əməktutumlu sahə olduğuna görə bu meyarlara cavab verirdi. Hələ o vaxtlar üzümçülük əhalinin iqtisadi həyatında mühüm rol oynamaqla istehsal olunan məhsulun ümumi illik dəyərində 48-51 faiz təşkil edirdi. 90-cı illərdən başlayaraq, başqa digər sahələr kimi, üzümçülük də inkişafdan qaldı. Yalnız 2004-cü ildən başlayaraq cənab prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regional inkişaf proqramları çərçivəsində üzümçülüyün inkişafına diqqət yetirilməyə başlandı. Bu gün respublikamızda istehsal olunan üzümün həcmi ildə 150-160 min ton təşkil edir ki, həmin məhsulun təzə halda böyük bir qismi istehlak olunur. Təkcə Bakı şəhərinin əhalisinin 6 ay ərzində təminatına ən azı 60-70 min ton süfrə üzümü tələb olunur. Abşeron yarımadası «Ağ şanı», "Qara şanı", «Qara kişmişi», "Ağ kişmişi", «Kardinal», «Ağadağı», «Mərəndə» və s. kimi tez, orta və gec yetişən süfrə üzüm sortlarının becərilməsi üçün əlverişli məkan olsa da, burada olan üzüm bağları mövcud potensiala cavab vermir. Respublikamızda 40-dan çox üzüm hibridləri yaradılıb. Bunlardan «Azəri» və «Göygöl» üzüm sortları Dövlət Komissiyası tərəfindən təsdiq edilərək rayonlaşdırılıb. Daha 6 sort – «İlhami», «Şamaxı hədiyyəsi», «Bəhrəli», «Kəpəz», «Şirəli», «Gəncəli» sortları isə sınaq üçün Dövlət Komissiyasına təqdim edilib.

Üzümçülüyün bugünkü vəziyyətindən danışarkən cənab prezident qeyd etmişdir ki, üzüm-şərab istehsalı sahələrində olan imkanlara yenidən baxmaq lazımdır. Açığını demək lazımdır ki, texniki üzüm sortlarının istehsalı, emalı və satışı sahəsində problemlər yaşanır. Respublikamızda üzümçülük sahəsində olan imkanlar isə böyükdür. Mütəxəssislərin hesablamalarına əsasən, belə qənaətə gəlmək olar ki, ölkəmizdə ən az əmək və vəsait sərf etmək şəraitində ilk növbədə 90 min hektar üzüm plantasiyaları salmaqla 4 il ərzində ildə 1 milyon tonadək üzüm istehsal etmək olar. Bu həm də 605 min ton və ya 25 min dekalitr şərab materialı deməkdir.

Bir fakta diqqət yetirək. Əgər hər hektar üzüm bağından orta hesabla 250-300 sentner məhsul əldə edilirsə, hər hektar taxıl sahəsindən ən yaxşı halda 46-50 sentner məhsul götürmək olar. Düzdür, maya dəyəri baxımından üzümçülüyə çəkilən xərclər artıq olsa da, sonucda üzümdən əldə olunan gəlir digər məhsullara nisbətən əhəmiyyətli dərəcədə çoxdur.

### ÖLKƏMİZƏ VALYUTA GƏTİRƏN SAHƏLƏR ÇOXDUR

Ölkəmizə valyuta gətirən kənd təsərrüfatı təyinatlı məhsulların çeşid və növləri çoxdur. Bunların hər birinin inkişafı ilə bağlı konkret dövlət proqramları işlənib hazırlanıb.

Bu sırada baramaçılıq ön mövqelərdə dayanır. 2016-cı ildən başlayaraq bu istiqamətdə müəyyən tədbirlərin görülməsinə başlanılıb. Görülən tədbirlər nəticəsində keçən il barama istehsalı 200 kiloqramdan 70 tona çatdırılıb. 2017-ci ildə barama istehsalı iki dəfə artırılacaq. Bu məqsədlə ölkə üzrə 1,7 milyon ədəd tut tingi əkilib. Hazırda 37 rayonda əhali baramaçılıqla məşğul olur. Hər il bunun coğrafiyası genişləndiriləcək və 2019-cu ildə illik istehsal həcmi 1300 tonu ötüb keçəcək. Bu məqsədlə Şəki İpək Kombinatının tam gücü ilə işləməsi təmin ediləcək. Valyuta gətirən sahələrdən biri də fındıqçılıqdır. Təkcə 2016-cı ildə respublika üzrə 13 min hektar fındıq bağları salınıb və fındıq bağlarının ümumi sahəsi 30 min hektara çatdırılıb. Üç-dörd ildən sonra fındıq bağlarının həcmi 70 min hektarı ötüb keçəcək. Hazırda 13 rayonda bu sahədə zəruri işlər görülür.

Ölkəmizdə ildə təxminən 200 min ton nar, 240-250 min ton şərq xurması istehsal olunur. Çayçılığın dirçəldilməsi, zeytun və badam plantasiyalarının genişləndirilməsi istiqamətində, eyni zamanda, istixana təsərrüfatlarında yetişdirilən bostan və tərəvəz məhsullarının istehsalının artırılması sahəsində də ciddi addımlar atılır. Yaxın illərdə Azərbaycan regionun ən güclü kənd təsərrüfatı məhsulları istehsal və ixrac edən ölkəsinə çevriləcək.

**Zülfü İLYASOV**

# Ötən il də Azercell uğurlu fəaliyyəti ilə seçildi



"Azercell Telekom" MMC fəaliyyət göstərdiyi 20 il ərzində ölkə iqtisadiyyatında öz sözünü deyən şirkətlərdən biri olub. 2016-cı ildə də bir çox sahələrdə liderliyi qoruyub saxlayan mobil operator əksər göstəricilər üzrə irəliləyib. "Azercell Telekom" MMC Azərbaycanın mobil rabitə bazarının 48%-nə nəzarət edir. Onun şəbəkəsi ölkə əhalisinin 99,8%-ni, ərazinin isə 80%-ni (20% işğal olunmuş ərazini çıxmaq şərtilə) əhatə edir. Bu gün Azercell-in xidmətlərinə üstünlük verən abunəçilərin sayı 4,5 milyon nəfəri keçir. Azercell ölkənin qeyri-neft sektorunun ən böyük vergi ödəyicisi və sərmayədarı olmaqda davam edir. 2016-cı ildə Azercell dövlət büdcəsinə 175,1 milyon manat, 20 il ərzində isə 1 milyard 458,2 manat vəsait ödəyib.

4G-ni dəstəkləyən ən müasir mobil cihazları güzəştli şərtlərlə Azercell abunəçilərinə təqdim etdi və İphone smartfonlarının Azərbaycanda yeganə rəsmi təqdimatçısı oldu. Hazırda Azercell Azərbaycanda ən böyük müştəri xidmətləri şəbəkəsi - 63 Ön Masa və Azercell Ekspress ofisləri və 393 rəsmi satış məntəqəsindən ibarət ən geniş satış şəbəkəsi vasitəsilə abunəçilərinə sevə-sevə xidmət göstərir.

Mükafatlar baxımından da 2016-cı il şirkət üçün çox uğurlu oldu. Azercell Telekom-un prezidenti Vahid Mürsəliyev beynəlxalq "The Business Year" dərgisi tərəfindən "İlin şirkət rəhbəri" mükafatını aldı. O, həmçinin BMT nəzdindəki Beynəlxalq Rabitə Akademiyasının akademiki tituluna layiq görüldü, ölkədə Paralimpiya hərəkatının inkişafındakı xidmətlərinə görə Milli Paralimpiya Komitəsinin fəxri diplomu ilə təltif edildi. Eyni zamanda, Azercell Telekom Stevie Beynəlxalq Biznes Mükafatı üzrə 3 nominasiyada qalib oldu, "İlin telekommunikasiya şirkəti" və "İlin Korporativ Ünsiyyət Departamenti" nominasiyası üzrə bürünc mükafata, Azercell "Barama" İnnovasiya və Sahibkarlıq Mərkəzinin nəzdində yaranaraq fəaliyyət göstərən "Sumaks" şirkəti isə "İlin Startapı" nominasiyası üzrə gümüş mükafata layiq görüldü. Eyni zamanda, Azercell növbəti dəfə Şərqi Avropa ölkələrinin bazarlarını əhatə edən tədqiqat nəticələrinə əsasən, bazarda 3 ən yaxşı işəgötürən şirkətdən biri elan olundu.

Azercell-in köməyilə ölkəmizdə ilk dəfə olaraq möhtəşəm Oracle konfransı, "Big Data Day Baku", "Barama HackDay 2016" kimi tədbirlər baş tutub.

Ölkənin lider mobil operatoru olaraq Azercell 2017-ci ildə də fəaliyyətlərini peşəkarcasına davam etdirəcəklərinə inanırlar.

# Bakcell"in təşkil etdiyi mini-futbol çempionatının qalibləri Mançesterə səfər ediblər



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin "Bakutel 2016" sərgisi çərçivəsində təşkil etdiyi mini-futbol çempionatının qalibləri - Nicat Qapançızadə, İsmayıl İsmayılzadə və Anar Məmmədov 10-13 fevral 2017-ci il tarixləri arasında Mançesterə səfər ediblər.

Səfər zamanı klub rəsmiləri tərəfindən qonaqlar üçün Mançester Yunayted-Vatford oyununu izləmək, Old Trafford stadionuna turda iştirak etmək və klubun muzeyini ziyarət edərək, onun tarixi ilə tanış olmaq imkanı yaradılıb.

Qaliblər səfərlə bağlı fikirlərini belə ifadə ediblər:

İsmayıl İsmayılzadə: "Səfərim çox fərqli və maraqlı keçdi. Yeni bir təcrübə oldu mənim üçün. Səfər ərzində yeni yerlər, yeni insanlarla tanış oldum və maraqlı xatirələrlə geri qayıtdım. Old Trafford stadionu isə həqiqətən möhtəşəmdir. Onun xəyallar teatrı olmasının canlı şahidi oldum və bu hissləri bir daha yaşamaq istərdim. Bu fürsəti mənim üçün yaratdığına görə Bakcell şirkətinə təşəkkürümü bildirirəm".

Nicat Qapançızadə: "Mançesterə səfər zamanı yaşadığım unudulmaz hissləri sözlə ifadə etməyə çətinlik çəkirəm. Həqiqətən, çox maraqlı və fərqli keçdi. "Bakcell"ə xüsusi təşəkkürümü bildirirəm".

Anar Məmmədov: "Yadda qalan və əsrarəngiz bir səyahət oldu. Çox maraqlı keçdi. Bu səfərin təşkilində əməyi olan bütün əməkdaşlara təşəkkür edirəm. Çox sağol, Bakcell!"

# "Aura" Sağlamlıq mərkəzi bir günlük aksiya keçirəcək




"Excelsior Hotel & Spa Baku" otelinin "Aura" Sağlamlıq mərkəzi 8 Mart Beynəlxalq qadınlar gününə həsr edilmiş bir günlük aksiya keçirəcək. 8 Mart tarixində "Aura" Sağlamlıq Mərkəzində qadınlar üçün bir illik üzvlük 1350 AZN təşkil edəcək. Mərkəzin həyata keçirdiyi endirim və güzəşt aksiyalarında daha çox xanımlara yer ayrılması da diqqət çəkir. 5 yaşadək uşaqlara isə giriş ödənişsizdir. Heydər Əliyev prospekti 2 ünvanında fəaliyyət göstərən 5 ulduzlu "Excelsior Hotel Baku"nun turizm sektorunun inkişafında özünəməxsus yeri var. "Shuttle" xidməti göstərən "Mercedes" sprinter markalı mikroavtobus səhər saat 08:30-dan 22:00-a qədər "Aura"ya gələn qonaqların xidmətindədir. Şənbə və bazar günləri də daxil olmaqla mikroavtobus hər gün səhər 08:30-dan başlayaraq hər saatın yarısında "Excelsior Hotel & Spa Baku" otelinin qarşısından qonaqları "Park Bulvar"a və ilk turu səhər 09:00-dan başlamaqla hər saatda "Park Bulvar"ın qarşısından "Excelsior Hotel & Spa Baku" otelinə aparır. Xidmət ödənişsizdir, otelin xidmətlərindən istifadə etmək istəyən qonaqların rahatlığı üçün nəzərdə tutulub.

# Vergi xidməti – yeni çağırışlar, islahatlar, dəyişikliklər və transformasiya yolunda



**Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun Avropadaxili Vergi Administrasiyaları Təşkilatının saytında (www.iota-tax.org)** yerləşdirilmiş məqaləsində son aylar ölkəmizin vergi sistemində aparılmış islahatlar, vergi inzibatçılığındakı dəyişikliklərin əsas istiqamətləri ətraflı şəkildə şərh edilib. Məqalədə vergi siyasətinin tənzimləyici rolunun artırılması, əlverişli, şəffaf və cəlbedici vergi mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi və müasir korporativ idarəetmə sisteminin qurulması kimi məsələlərə aydınlıq gətirilib. Məqaləni diqqətinizə çatdırırıq.

Aparılan uğurlu və düşünülmüş iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı son illərdə sürətli inkişaf mərhələsindən keçib, neft gəlirlərinin səmərəli istifadəsi sayəsində ölkə iqtisadiyyatının diversifikasiyasına müvəffəq olunub, qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlər əldə edilib. İnkişaf etməkdə olan ölkəmiz istər regionda, istərsə də dünya miqyasında yüksək artım templəri nümayiş etdirən dövlətlərdən biri kimi tanınır. Son bir neçə ildə dünya iqtisadiyyatı qlobal transformasiyaların, mövcud siyasi-iqtisadi problemlərin təsiri nəticəsində yenidən durğunluq və tənəzzül meyilləri ilə üzləşib. Milli iqtisadiyyatların kənar təsirlərə qarşı həssaslığının artdığı bir vaxtda inkişaf proseslərinə təsir göstərən qlobal faktorların da sayı ciddi şəkildə artıb, bütün ölkələrin bu və ya digər dərəcədə qlobal böhranın təsirlərinə və onun doğurduğu fəsadlara məruz qalması qaçılmaz hal alıb.

Zamanın iqtisadi gerçəkliklərinə hər zaman çevik münasibəti ilə fərqlənən ölkəmizdə son illər həyata keçirilən qabaqlayıcı iqtisadi-sosial siyasət nəticəsində belə qlobal böhranların fəsadları minimallaşdırılıb. Neft gəlirlərinin ölkənin qeyri-neft sektorunda alternativ gəlir mənbələrinin yaranmasına yönəldilməsi istiqamətində aparılan işlər, bu sahəyə xarici investisiyaların cəlb edilməsi, işgüzar mühitin və biznesin fəaliyyəti üçün yaradılan şərait Azərbaycanın müxtəlif böhranların uzunmüddətli təsirlərinə qarşı dayanıqlı iqtisadi bazasının formalaşmasına imkan verib. Təsadüfi deyil ki, bütün bunlar qısa müddət ərzində ölkəmizin bir çox beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşmasına gətirib. 2016-cı ildə Dünya İqtisadi Forumunun tərtib etdiyi Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında Azərbaycan 138 dövlət arasında 37-ci yerdədir (MDB ölkələri sırasında isə 1-ci yerdə). Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında isə ölkəmiz 65-ci pillədə qərarlaşıb. Bu hesabatda Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə «Biznesə başlama» göstəricisi üzrə dünyada ilk beşliyə daxil olub və ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi qeyd edilib.

**Yeni iqtisadi inkişaf modeli - milli iqtisadiyyatın yol xəritələri**

Son bir neçə ildə dünya iqtisadiyyatının yeni tsiklə daxil olması, dünya enerji bazarlarında neftin kəskin ucuzlaşması bütün neft ixracatçısı ölkələrinə, o cümlədən Azərbaycana da təsirsiz ötüşməyib. Belə bir şəraitdə ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının liberallaşdırılması, rəqabət qabiliyyətinin artırılmasını, idxaldan asılılığın azaldılmasını, ixracyönümlü qeyri-neft sektorunun əsaslı inkişafının təmin edilməsini, insan kapitalından səmərəli istifadə edilməsi məqsədilə iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını, bu istiqamətdə davamlı və ardıcıl islahatların aparılmasını hökumətin qarşısında 2016-cı il üçün mühüm vəzifə olaraq müəyyənləşdirmişdi. Beləliklə, yeni iqtisadi strategiyanın hazırlanması və müvafiq institusional və konseptual islahatların həyata keçirilməsi ciddi bir zərurət olaraq ortaya çıxıb.

Yeni inkişaf dövründə ölkəmizin qarşısında duran məsələlərin həlli və dayanıqlı inkişafa nail olmaq istiqamətində mühüm addımlardan biri də «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nin təsdiq olunmasıdır. Bu xəritə, eləcə də iqtisadiyyatın 12 əsas sektoru üzrə təsdiq edilmiş strateji yol xəritələri Azərbaycanın yaxın gələcək üçün hədəflərini və prioritet inkişaf istiqamətlərini müəyyən edən fundamental sənəd toplusu olmaqla, ölkənin yeni iqtisadi modelinin əsasını təşkil edir. Strateji yol xəritələri 2016-2020-cı illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üzrə qarşıya qoyulmuş hədəfləri özündə əks etdirir. İqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlilinə əsaslanan bu sənədlərdə ayrı-ayrı sektorların inkişaf istiqamətləri, rəqabətqabiliyyətliliyin daha da artırılması, investisiyaların cəlbi, azad rəqabət mühiti, dünya bazarlarına çıxış, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin və etibarlı tərəfdaş imicinin gücləndirilməsi əsas vəzifələrdən biri kimi müəyyən edilib.

Yeni çağırışların yarandığı dövrdə Azərbaycanın iqtisadi prioritetləri, bunların həyata keçirilməsi yolları, o cümlədən 2017-ci ildə ölkəmizin qarşısında duran əsas məsələlər ölkə Prezidenti cənab İlham Əliyevin Davos Forumunun saytında yayımlanmış məqaləsində geniş şərh edilir. Yeni erada qarşıda duran əsas məqsədlər sırasında iqtisadiyyatda qeyri-neft sektorunun diversifikasiyası prosesinin dərinləşdirilməsi, maliyyə sisteminin sağlamlaşdırılması, əhalinin gəlirlilik səviyyəsinin və məşğulluğunun artırılması da yer alır. Hazırda Azərbaycanda struktur və institusional islahatlar davam etdirilir, iqtisadi potensialın gücləndirilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının artırılmasına, aqroparkların və iri fermer təsərrüfatlarının, sənaye parklarının və zonalarının yaradılmasına, ölkənin tranzit və logistik potensialının yüksəldilməsinə dövlət tərəfindən güclü dəstək verilir. Bunlarla paralel dövlət idarəetmə sistemi təkmilləşdirilir, bütün sahələrdə, o cümlədən vergi və gömrük sistemində şəffaflıq təmin edilməkdədir.

**Çağırışlar və dəyişikliklər üçün açıq vergi sisteminə doğru**

İslahatları dəstəkləyən mühüm dövlət qurumu rolunda çıxış edən milli vergi sistemi, öz növbəsində, daim iqtisadi situasiyanın dəyişməsinə operativ və adekvat reaksiya verməkdədir. Son illərdə vergi sisteminin inkişafına, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, institusional potensialın gücləndirilməsi istiqamətində əsaslı nailiyyətlər əldə edilməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının yeni inkişaf istiqamətləri, biliklərə əsaslanan müasir iqtisadiyyatın qurulması vergi xidməti qarşısında da yeni vəzifələr müəyyən edir. Bu vəzifələrin sırasına ilk növbədə iqtisadi siyasətin mühüm qolu olan və biznes fəaliyyətinin tənzimlənməsində effektiv alət hesab edilən vergi siyasətinin tənzimləyici rolunun artırılması, əlverişli, şəffaf və cəlbedici vergi mühitinin formalaşdırılması, vergi inzibatçılığının yeni səviyyəyə qaldırılması, sahibkarlar üçün xidmətlərin təkmilləşdirilməsi və müasir korporativ idarəetmə sisteminin qurulması daxildir.

**İntensiv islahatlar ili**

İqtisadiyyatda yeni eranın başlanması 2016-cı ildə vergi sistemində də fundamental islahatları labüdləşdirib. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nə dair sənəddə, eləcə də «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə yeni dövrdə vergi sisteminin qarşısında duran mühüm vəzifələr öz əksini tapır. Bunlar vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması, habelə ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi, verginin stimullaşdırıcı təsirinin önə çəkilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»dir ki, bu da ötən il həyata keçirilən tədbirlərin əsas konturlarını müəyyən edib.

Vergi risklərinin müəyyən edilməsi və yayındırılan vergilərin aşkarlanması məqsədilə «risklərin idarə edilməsi» sistemi kimi innovativ alətlər uğurla tətbiq olunub, iri vergi ödəyicilərində elektron auditin tətbiqi dairəsi genişləndirilib, vergi yoxlamalarının bütün növlərinin həyata keçirilməsi ilə bağlı qaydalar təkmilləşdirilib, elektron xidmətlərin sayı artırılıb, ölkəmizə turist axınının artımında mühüm rol oynayan «Tax free» sisteminin tətbiqinə başlanılıb. 2016-cı ildə OECD-nin Qlobal Forumunun Qiymətləndirmə Qrupu Azərbaycan Respublikasının vergi sistemində şəffaflığın və məlumat mübadiləsi sisteminin beynəlxalq standartlara uyğunluğu ilə bağlı hesabatı qəbul edərək, ölkəmizə yüksək reytinq verib. Bundan başqa, intizamlı vergi ödəyicilərinə «yaşıl dəhliz» prinsipi əsasında fərdi və sürətli innovativ texnologiyalara söykənən xidmətlərin göstərilməsi üçün hazırlıq işləri başa çatdırılıb. Bütün bunlar vergi sistemində şəffaflığın daha da artırılmasına, vergi orqanları və sahibkarlar arasında münasibətlərin yeni müstəviyə qaldırılmasına şərait yaradıb.

**Liberallaşan Vergi Məcəlləsi**

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə qısa müddət ərzində beynəlxalq təşkilatlar, maliyyə institutları, sahibkarların ictimai birlikləri, biznes nümayəndələri ilə sıx və konstruktiv dialoq əsasında Vergi Məcəlləsinə və digər qanunvericilik sənədlərinə həm həcm, həm də mahiyyət baxımından ciddi və böyük dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlanıb və 2016-cı ilin sonunda qəbul edilib. Bu dəyişikliklərin əsas məqsədi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, vergi yükünün optimallaşdırılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, onların vaxt itkisinə məruz qalmaması və vergi öhdəliklərinin daha rahat şəkildə yerinə yetirilməsi, bir sıra vergi ödəyiciləri üçün güzəştlərin müəyyən edilməsi yolu ilə sosial bərabərliyin təmin olunması, nağdsız əməliyyatların həcminin artırılması, vergitutma bazasının genişləndirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, uçotun dürüstlüyünün və şəffaflığının təmin olunmasıdır. Bununla yanaşı, Vergi Məcəlləsinə beynəlxalq təcrübəyə əsaslanan bir sıra mütərəqqi yeniliklərlə bağlı müddəalar da əlavə edilib. Bunların sırasına vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydası və vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edən «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi, transfert qiymətlərinə və ofşor zonalarda qeydiyyatdan keçmiş müəssisələrlə aparılan əməliyyatlara nəzarət mexanizmlərinin qurulması, rəqəmsal iqtisadiyyatın, xüsusilə elektron ticarət üzərində vergi mexanizmlərinin yaradılması daxildir. E-ticarət üzərində vergi mexanizmlərinin yaradılması hazırda dünya vergi administrasiyalarının qarşısında duran həlli mürəkkəb problemlərdən biridir. Bu sahədə vergi mexanizmlərinin qurulması məqsədilə bir çox ölkələrin, xüsusilə aparıcı Avropa dövlətlərinin təcrübəsi öyrənilib və MDB məkanında problemin ən effektiv və spesifik həlli məhz Azərbaycanın vergi qanunvericiliyində öz əksini tapıb.

Vergi administrasiyasının rəhbərliyi qarşıya qoyulmuş bu hədəfin reallaşdırılması üçün praktiki addımlar atıb. Həm qanunvericilik, həm də vergi sistemində inzibatçılığın təkmilləşdirilməsi sahəsində həyata keçirilən islahatları koordinasiya etmək məqsədilə Vergilər Nazirliyində İdarəetmə Mərkəzi yaradılıb. Bu Mərkəz Vergilər Nazirliyində keçirilən kollegiya iclaslarında qəbul edilmiş tədbirlər planlarında nəzərdə tutulmuş məsələlərin çevik və sürətlə icra edilməsi məqsədilə hazırda intensiv işlər görür.

**(davamı gələn sayımızda)**


IOTA
Intra-European Organisation of Tax Administrations
USERNAME OR E-MAIL * PASSWORD * Log in
CREATE NEW ACCOUNT REQUEST NEW PASSWORD
ABOUT US OUR EVENTS OUR PRODUCTS CALENDAR NEWS

Reforms and transformation of tax service in Azerbaijan

23/02/2017 - 14:33 Azerbaijan Ágnes Kővágó

Article of Mr Fazil Mammadov, Minister of Taxes about challenges tax service is facing in Azerbaijan and about reforms and changes implemented:

"The national tax authority functioning as a vital state institution in supporting the reforms, always reacts to economic changes in a prompt and adequate manner. Notwithstanding substantial achievements of the tax system in improving tax legislation and administration, as well as institutional capacity in recent years, new trends in national economy and the need for building a knowledge-based modern economy has set a new agenda for tax authorities. To this end, enhancement of regulatory role of tax policy, creation of affordable, transparent, and attractive tax environment, upgrading the tax administration, improvement of services for entrepreneurs and establishment of modern corporate governance system which are considered significant factors in economic policy, as well as effective tools in regulating the business activity come first."

Please find the whole article here.

Contact: Intra-European Organisation of Tax Administrations (IOTA) Wesselényi utca 16. H-1077 Budapest, Hungary | Contact us
Web: Brainsum

# ALİMLƏRİMİZİN ELMİ NƏTİCƏLƏRİ BEYNƏLXALQ KONFRANSDA MÜZAKİRƏ EDİLMİŞDİR





Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Geologiya və Geofizika İnstitutunun (GGİ) Tektonofizika və Geomexanika şöbəsinin rəhbəri, akademik Hətəm Quliyev və İqtisadiyyat İnstitutunun şöbə rəhbəri, Azərbaycan Universitetinin professoru, AMEA-nın müxbir üzvü Akif Musayev 2017-ci il 21-26 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Şarjah şəhərində Amerika Fizika, İngiltərənin Kral Fizika Cəmiyyətlərinin və Şarjah Amerika Universitetinin birgə həyata keçirdiyi "Nəzəri və tətbiqi fizikanın ön cəbhəsi" (Frontiers in Theoretical and Applied Physics (FTAPS2017)) UAE 2017 Beynəlxalq konfransında iştirak ediblər.

Konfransda dünyanın 40-a yaxın ölkəsindən 500-ə yaxın alim və mütəxəssis fizikanın müasir istiqamətləri üzrə alınmış nəticələrini təqdim etmiş və müzakirələr aparmışlar. Akademik H.Quliyev fevral ayının 23-də Astrofizika seksiyasının Mars/Günəş sistemi bölməsində "Yerin bərk nüvəsi haqqında yenilik" mövzusunda şifahi məruzə ilə çıxış etmişdir. Onun "Aləmin əbədi dövranı paradiqması" mövzusunda P81 saylı poster çıxışı fevral ayının 22-24 tarixlərində konfransın "Astrofizika, kosmos və planetlər fizikası" bölməsində təqdim edilmişdir. Məruzələr müəyyən marağa səbəb olub və mütəxəssislər tərəfindən dəstəklənibdir.

Alimlərimiz Almaniyanın Milli Metrologiya İnstitutunun prezidenti prof. Yoahim Ulrix, Amerikanın Nyu Mexiko Dövlət Universitetinin prof. Heinz Nakotte, Şarjah Amerika Universitetinin fizika fakültəsinin dekanı prof. Ali Alnaser, Rusiya Elmlər Akademiyasının Yüksək Enerji Elektron İnstitutunun prof. Viktor Tarasenko, Beyrut Ərəb Universitetinin dosenti Hanan Talal Rahal və digər görkəmli alimləri ilə müzakirələr aparıblar və gələcək işlər barəsində fikirlərini bölüşüblər. Müzakirələrdə müasir metrologiya sahəsində fiziki ölçmə vahidlərinin dəqiqləşdirilməsi və sənayenin müxtəlif sahələrində alınmış müsbət yeniliklərin iqtisadiyyatın müasir problemlərinin həllində istifadə oluna bilinməsi məsələlərinə daha geniş yer ayrılmışdır.

IOP Publishing şirkəti konfransın bir sıra iştirakçılarını, o cümlədən akademik H.Quliyevi bu nüfuzlu elm platformasına 6 ay müddətində pulsuz girişlə təmin etmişdir.

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ AUDİT QİYMƏTLƏNDİRİLMƏSİ

Turizm hazırda dünya iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilib. Ümumdünya Ticarət Təşkilatının proqnozlaşdırmasına görə, səyahətə çıxan turistlərin sayı hər il 4,1 faiz artmaqdadır və 2020-ci ildə səyahətə çıxanların sayı 1,6 milyard nəfərə çatacaq. Bu, onu göstərir ki, dünyada turizmin xidmətinin rolu artmaqdadır və yaxın gələcəkdə daha da artacaqdır. Bu baxımdan ölkədə turizmin təşkili və onun iqtisadiyyatda rolunun artması çox aktual məsələlərdən biridir.

Dünya İqtisadi Formunun 2014-2015-ci il "Dünya Rəqabətlik Hesabatı"nda qlobal turizmin rəqabət qabiliyyətlilik indeksinə görə Azərbaycan bir pillə irəli gəlib və 144 ölkə arasında 38-ci yerdə qərarlaşıb. Bu, onu göstərir ki, turizm sahəsi üzrə hələ də istifadə olunmamış imkanlar (ehtiyyatlar) mövcuddur. Bu isə turizmin formalaşmasına, inkişafına və stimullaşdırılmasına şərait yaratmaqdadır.

Azərbaycanda bu sahə ötən əsrin 90-cı illərinin sonundan başlayaraq inkişaf etməyə başlayıb. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş, bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət milli iqtisadiyyatın bütün sahələri kimi turizm sektorunun da inkişafına əlverişli zəmin yaradıb. Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin inkişafına güclü təkan vermişdir.

2017-ci ilin yanvar ayında "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda ölkə rəhbəri son illər turizm sahəsində qazanılan uğurları da diqqətə çatdırdı. "Son 12 il ərzində Azərbaycanda 300-ə yaxın mehmanxana tikilmişdir. Bizim indi dünya səviyyəli kurortlarımız var. Şahdağ, Naftalan, Qəbələ beynəlxalq kurort mərkəzinə çevrilibdir və Qalaaltı müalicəvi kurort mərkəzidir. Naxçıvanda Duzdağ kurortu yaradılmışdır. Sadəcə daha fəal olmalıyıq ki, turistləri cəlb edək. Burada vizaların sadələşdirilməsi işində əlavə tədbirlər görülüb ki, biz daha çox turist axınını təmin edək". Bütün bunlar Azərbaycanı turizm üçün cəlbedici ölkəyə çevirir.

Mənbələrə görə, "turizm" sözü fransız dilində "turizme" adlanır. Onun leksik mənası isə səyyahların, tacirlərin, elmi axtarışda olan adamların bir ölkədən digər ölkəyə getməsini ifadə edir. Elə "turist" adı da buradan götürülmüşdür. Beynəlxalq Assosiasiya tərəfindən qəbul edilən tərifə görə isə turizm sosial-iqtisadi sistem kimi insanların daim yaşayış yerindən fərqli, onların əmək fəaliyyəti ilə bağlı olmayan məkanlara yerdəyişmə və gəlişi zamanı meydana çıxan münasibətlərin, əlaqə və hadisələrin məcmusu sayılır.

Turizmin iqtisadi mahiyyəti onunla izah olunur ki, o, müştərilərə məhsulunu və xidmətlərini təklif etməklə yerli sənayenin, kənd təsərrüfatının və digər sahələrin tələbini canlandırır, onların inkişafına, istehlak mallarının istehsalını artırmağa, məşğulluğun yüksəldilməsinə təsir göstərir. Bununla həm də turist axını mədəniyyət, əyləncə, istirahət müəssisələrinin (muzeylər, incəsənət, idman-kurort, sərgilər, xalq sənətkarlığı, abidələr, şou və s.), mehmanxanaların, nəqliyyat müəssisələrinin gəlirlərini artırır. Bu isə vergi ödəmələri hesabına fayda verir və ölkəyə xarici valyuta axınına səbəb olur.

Dünyanın bir çox ölkələrində turizm insanların sağlamlığında, asudə vaxtlarının səmərəli istifadəsində, iqtisadiyyatda önəmli yer tutur, regionların sosial inkişafına təkan verir, büdcəyə əlavə vəsaitlərin cəlb edilməsinə əlverişli şərait yaradır. Bu gün dünya milli məhsulunun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10%-i turizmin payına düşür. Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkədə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Ümumiyyətlə turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadəsinin genişlənməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmunu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizmin sosial-mədəni servis xidmətlərinin təşkili zəruridir.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədilə 2006-cı ildə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmış, eyni zamanda, Ümumdünya Turizm Təşkilatının və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə müxtəlif təlim proqramları həyata keçirilməkdədir.



Bununla yanaşı, turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Aparılan hesablamalara görə, dünyada milli məhsulun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10 faizi turizmin payına düşür. Azərbaycanda isə 2015-ci ildə ümumi daxili məhsulun 4,5 faizi, ölkə üzrə investisiyaların 5,3 faizi turizmin payına düşür, iqtisadi fəaliyyətlə məşğul olan əhalinin 1,1 faizi turizm sahəsində çalışır. Göründüyü kimi, son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlarına adekvat surətdə cavab verərək, həllinə şərait yaradır.

Azərbaycan Respublikasında turizm sektorunun dayanıqlı inkişafının təmin edilməsi və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2010-cu il 6 aprel tarixində "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır.

Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsini təmin etməklə yanaşı, turizmin fəaliyyətinin genişləndirilməsinə şərait yaradılmasıdır.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlərdən biri də ölkə üçün əsas sahə olan turizmin formalaşması və inkişafıdır. Hazırda ölkəmizdəki turizm xidmətlərinin keyfiyyətinə görə Türkiyədən və fəaliyyətdə olan qiymətlərə görə Gürcüstandan geri qalırıq. 2014-cü ildə Azərbaycanda turizmin ümumdaxili məhsulda payı 4,1% təşkil etdiyi halda, bu göstərici qonşu Gürcüstanda 7,5%, Türkiyədə isə 12,3% təşkil etmişdir. Bu məqsədlə ölkədə bir sıra kompleks tədbirlər həyata keçirilmiş və hal-hazırda da davam etdirilməkdədir. Son illər Azərbaycanda turizm sahəsində beynəlxalq əlaqələrin təşkili və inkişaf etdirilməsi, turizm imkanlarının təbliği, milli turizmin inkişafı və turizmin infrastrukturlarının yeniləşməsi sahəsində konkret istiqamətlər müəyyənləşdirilib. Bu baxımdan Azərbaycanda turizmi inkişaf etdirmək məqsədilə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur: Turizm sahəsində sahibkarlığın, turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsi, bunların beynəlxalq standartlara uyğunlaşdırılması, turizm fəaliyyətinin dövlət tənzimlənməsi, turizm infrastrukturunun və sənayesinin inkişafı, eyni zamanda, xarici investorların turizm sferasına cəlb edilməsi, bu vəzifələrin ardıcıl olaraq həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 dekabr tarixli fərmanı ilə təsdiq edilən Azərbaycan Respublikasında Turizm Şurasının yaradılması haqqında Əsasnamədə bir daha göstərilmişdir.

Hazırda "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsi"nin əsaslarından biri olan turizm sferasının gündən-günə inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq turizmə inteqrasiya etməsindən çox aslıdır. Ümumilikdə, 2014-cü ildə ölkəyə gələn turistlərin sayı 2,3 milyon nəfər olub. Xarici turistlərin ölkədəki xərcləri 1,3 milyard manat, turizm və aidiyyatı sahələrdə çalışan işçilərin sayı 42 min nəfər, turizm sahəsinin ölkənin ümumi daxili məhsulundakı xüsusi çəkisi isə 4,1% olub. Həmçinin, Azərbaycan mehmanxanalarında keçirilən gecələmələrin sayı 2013-cü illə müqayisədə 0,8% artaraq 1687,5 min adam-gecə təşkil edib. Bunun 47,6%-i xarici ölkə vətəndaşlarının payına düşüb. Ümumi gecələmələrin 64,1 faizi Bakı şəhərində qeydə alınıb. Eyni zamanda, mehmanxana və mehmanxana tipli müəssisələrdə 392,8 min nəfər xarici ölkə vətəndaşı gecələyib. Onların əsas hissəsini Böyük Britaniya, Rusiya, Türkiyə, ABŞ, Almaniya, İran, İtaliya, Ukrayna, Fransa, Gürcüstan, Çin və Qazaxıstan vətəndaşları təşkil edib. Əcnəbilərin 73,2 faizi ölkəyə turizm məqsədilə səfər edib. 2013-cü illə müqayisədə bu müəssisələrin xidmətlərindən istifadə edən Bolqarıstan, Estoniya, Finlandiya, Çexiya, Yaponiya, Belçika, Polşa, Türkiyə, Moldova, Çin, Almaniya və Rumıniya vətəndaşlarının sayında daha çox artım müşahidə olunub. Turistlərin 43,1 faizi istirahət və əyləncə, 37,5 faizi işgüzar, digərləri isə turizm məqsədilə ölkəyə səfər edib. İstirahət və əyləncə məqsədilə Bakı, Naxçıvan, Quba, Şamaxı, Şəki, Masallı, Qəbələ, Mingəçevir, Abşeron, İsmayıllı, Qusar, Lənkəran və Qaxa səfər edən turistlərin sayı daha çox olub. Turizm məqsədilə xarici ölkələrə səfər edən ölkə vətəndaşlarının 34,7 faizini Bakı sakinləri təşkil edib. Bütün bunlar göstərir ki, respublikada turzimin inkişafı üçün əlverişli şərait vardır. Bu isə ölkənin ümumdaxili məhsulunun formalaşmasında, tədiyyə balansının sabitləşdirilməsində, əhali məşğulluğunun təmin olunmasında və büdcə daxilolmalarının artırılmasında böyük rol oynayır. Azərbaycanda 2014-cü ildə ölkə üzrə 535 mehmanxana və mehmanxana tipli müəssisələrin nömrələrinin sayı 4,9 faiz artaraq 17367 vahid, bir dəfəlik tutumu isə 5% artaraq 37278 çarpayı-yer olub. Birdəfəlik tutumun 12761-i Bakı şəhərində yerləşən mehmanxanalardır.

**(ardı gələn sayımızda)**

**i.e.d., prof. Hacıyev F.Ş.**
**Azərbaycan Dövlət İqtisad Universiteti,**
**"Mühasibat uçotu və audit" kafedrası**

# UNEC tələbələrindən Xocalıya həsr olunan tamaşa: "Əsirlikdə bir gün"





UNEC-də Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilən tədbir keçirilib.

Tədbirdə Səbail rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, millət vəkili Flora Qasımova, UNEC-in rektoru, professor Ədalət Muradov, professor-müəllim heyəti, tələbə və valideynlər iştirak ediblər. Tədbirdən öncə iştirakçılar Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan, yarpaqlarında faciə qurbanlarının adları həkk olunan abidə ağacı, tələbələrin soyqırımı əks etdirən rəsm əsərləri və fotolardan ibarət sərgi ilə tanış olub, soyqırım qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbir iştirakçıları UNEC Yaradıcılıq Mərkəzinin hazırladığı "Əsirlikdə bir gün" tamaşasını izləyiblər. Tamaşa real hadisələr əsasında qurulub.

Sonra tamaşada iştirak edən tələbələrə, eyni zamanda, UNEC Yaradıcılıq Mərkəzinin üzvləri arasında Xocalı soyqırımına həsr edilən şeir, hekayə və rəsm müsabiqəsinin qaliblərinə diplomlar təqdim edilib. Şeir müsabiqəsinin qalibi, Beynəlxalq İqtisadiyyat Məktəbinin I kurs tələbəsi İlham Quliyev Xəlil Rza Ulutürkün "Nifrət məktəbi yarat" şeirini səsləndirib.

Tədbir UNEC-in rəsmi Facebook səhifəsi ilə canlı yayımlanıb.

Azərbaycan Respublikası təhsil nazirinin imzaladığı "Təhsil müəssisələrində Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsi barədə" tədbirlər planına əsasən, UNEC-də fevralın 24-dən 26-dək "Xocalı həftəsi" elan edilib. "Xocalı həftəsi" çərçivəsində universitetin bütün tədris binalarında, Zaqatala filialında və Maliyyə İqtisad Kollecində silsilə tədbirlər təşkil edilib. Seminar və dəyirmi masalarda gəncləri sosial şəbəkədə Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında fəal olmağa səsləyiblər. Universitetdə və kollecdə tələbələrin əl işlərindən ibarət, Xocalı faciəsini əks etdirən foto və rəsm sərgiləri keçirilib. Universitetdəki bütün monitorlarda Azərbaycan və ingilis dillərində soyqırımla bağlı filmlər nümayiş olunub. Fevralın 24-də UNEC-də, universitetin Zaqatala filialı və Maliyyə İqtisad Kollecində birinci dərslər Xocalı soyqırımına həsr olunub.

# Azərbaycan istehsalı olan mebellər Qətərdə satılacaq



25-27 fevral tarixlərini əhatə edən ixrac missiyası çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Qətərin Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə Azərbaycan və Qətər iş adamları arasında görüş keçirilib.

Tədbirdə AZPROMO-nun rəhbəri Rüfət Məmmədov Azərbaycanda qeyri-neft sektorunun inkişafı, ölkəmizin ixrac potensialı və bu sahədə həyata keçirilən islahatlar, ixracın stimullaşdırılması tədbirləri, rəqabətqabiliyyətli və keyfiyyətli yerli məhsullarımız barədə məlumat verib. 100-ə yaxın ərəb iş adamının, eləcə də distributor şirkətlərin iştirakı ilə keçirilmiş ikitərəfli görüşlərdə Azərbaycan və ərəb iş adamları arasında əlaqələrin genişləndirilməsi, Qətərə ixrac imkanlarına dair müzakirələr aparılıb, şirkətlərimiz istehsal etdikləri ixracyönümlü məhsullar barədə məlumat veriblər.

Tədbir çərçivəsində Azərbaycanın "İDEA" MMC ilə Qətərin "Scandinavian Supplies" şirkəti arasında "Made in Azerbaijan" brendi altında şəhər və park mebelinin Qətərdə təşviqi və satışına dair müqavilə imzalanıb. 10 ildən çoxdur fəaliyyət göstərən IDEA açıq havada metal və ya taxtadan kiçik memari formaları, bağ mebeli, urban dizayn elementlərini istehsal edir. Şirkətin Novxanıda sərgi salonu yerləşir.

İxrac missiyası zamanı, həmçinin Azərbaycan şirkətlərinin Qətər İnvestisiya Təşkilatında görüşü təşkil olunub, iş adamlarımız "Carrefour" marketlər şəbəkəsində və yerli bazarlarda olublar.

# Fuad Ələsgərov – 80

## İqtisadi təhsilin inkişafına həsr olunan ömür



F.Ələsgərov 1937-ci il fevralın 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1955-ci ildə orta məktəbi bitirib, K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1959-cu ildə Azəebaycan Dövlət Universitetinin "İqtisad" fakültəsinin "Əmtəəşünaslıq və qeyri-ərzaq mallarının əmtəəşünaslığı və ticarətin təşkili ixtisasını bitirmişdir. Aspiranturadan sonra Praqada Ali İqtisad Məktəbinin "Daxili ticarət fakültəsində staj keçməklə, qısa müddətdə çex dilini öyrənərək, Avropa ölkələrində gedən ticarət əlaqələrinin iqtisadi mahiyyətini mənimsəmiş və 1964-cü ildə Praqada ilk, hal-hazırda yeganə azərbaycanlı olaraq iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Sovet dönəmində ölkə hüdudlarından kənarda, özü də çox gənc yaşlarında – 27 yaşında dissertasiya müdafiə etmək hər alimin işi deyildi. Həmin ildə təkcə bu institutun deyil, respublikanın, demək olar ki, bütün gəncləri Fuad müəllimə pərəstiş ediblər.

F.Ələsgərov 1964-cü ildən taleyini təhsilə bağlamış, Azərbaycaycan Xalq Təsərrüfatı İnstitutunda müəllim, sonra dekan müavini və nümunəvi dekan olmuşdur. O, məhsulun keyfiyyətinin yüksəldilməsinin mahir bilicisi kimi nəinki respublikada, eləcə də keçmiş SSRİ-də və xaricdə tanınan bir alim olmuşdur. Təhsildəki uğurlarına görə, Fuad Ələsgərov SSRİ Təhsil Nazirliyinin təsis etdiyi "Ali məktəbdə yüksək nailiyyətlərə görə" döş nişanı ilə təltif edilmişdir.

1976-cı ildə F.Ələsgərov "Xalq istehlakı mallarının keyfiyyətinin yüksəldilməsinin iqtisadi problemləri və ticarət" mövzusunda doktorluq işini uğurla müdafiə edib. Bu sahənin görkəmli mütəxəssislərinin yazdıqları kimi, onun iqtisad elminə gətirdiyi nailiyyətlər sırf texniki elm hesab olunan əmtəəşünaslığı iqtisadi elmlə, iqtisadi ünsürlərin üstünlük təşkil etməsi ilə sintez etməsindədir. O, 1978-ci ildən professordur.

Hələ SSRİ-nin planlı iqtisadiyyatının hökm sürdüyü illərdə F.Ələsgərovun yazmış olduğu irihəcmli monoqrafiyalarda, dərslik və dərs vəsaitlərində iqtisadi sistemin bazar mexanizminin əsas prinsipləri əsasında formalaşması kimi cəsarətli ideyaları diqqəti cəlb etmişdi.

F.Ələsgərovun Sovetlər Birliyi məkanında ilk dəfə olaraq malların keyfiyyətinin və çeşidinin idarə olunmasının fundamental problemlərini yeni mexanizm – marketinq vasitəsilə həll etməsi o dövr iqtisadi mühitinin və tələbələrin böyük marağına səbəb olmuş və bu gün də maraq dogurmaqdadır. Onun bir çox elmi əsərləri xaricdə, Avropa ölkələrində çap olunmuşdur. F.Ələsgərovun "Çeşid və keyfiyyət: idarəetmə problemləri" mövzusunda yazdığı elmi əsərləri xarici ölkələrdə keçirilən konfranslardakı çıxışlarında, eləcə də həmin ölkələrin elmi jurnallarında yeni sosial-iqtisad kateqoriyaların yaradılması kimi qəbul edilmişdir.

F.Ələsgərov "marketinq" üzrə elmi əsərlərin ilk müəllifidir.

1987-ci ildə professor F.Ələsgərov Respublika Nazirlər Sovetinin nəzdində yeni yaradılmış Azərbaycan Xalq Təsərrufatının İdarəedilməsi İnstitutunun tədris işləri üzrə prorektoru, 1989-1992-ci illərdə Voznesenski adına Leninqrad Maliyyə İqtisad İnstitutunun Bakı filialının direktoru vəzifəsində çalışmışdır.

İnsanlıq və xeyirxahlıq Fuad Ələsgərovun əsas xasiyyətlərindəndir. O, tələbələrə daim gərəkli olan şəxs olub. Tələbələr də, eyni zamanda, onun qismində özlərinə arxa görüblər.

Fuad müəllim təhsil ocağına məbəd kimi baxan rektorlardan olub. Çünki onun şəxsi mənəviyyatı da məbəd bulağından su içib. Buna görə indiyə qədər onu mənəviyyatı sağlam, nəfsi tox, haqqı müdafiə edən, zəifə arxa duran, təhsilə gəlir mənbəyi kimi baxanların qənimi kimi tanıyırlar.

Böyük şairimiz Məmməd Araz dostu Fuad Ələsgərova həsr etdiyi şeirində bu xeyirxah insanın əxlaqi keyfiyyətlərini belə qələmə almışdır:

"Yüz dərdim dağılıb dost nəfəsiylə,
**Zülmətdə işaran ağı görmüşəm.**
**Doğruluq, əyrilik tərəzisində**
**Yaxşını yamandan ağır görmüşəm.**
**Qəlbimin səsindən sözüm doğulub,**
**Külək olmamışam yanar şamlara.**
**Olsa da pislərin özündən olub -**
**Pislik etməmişəm pis adamlara".**

Bəli, Fuad Ələsgərov çətin ömür yolu keçsə də, ümidini itirməyib "zülmətdə işaran ağı" da görüb, həyatın "doğruluq, əyrilik tərəzisi"ndə daim yaxşını yamandan ağır da görüb, lakin bir çox adamlar kimi yanar şamlara "külək olmayıb", əksinə, pərvanə olub, hətta ona pislik edən adamlara belə pislik etməyib. F.Ələsgərov, sözün əsl mənasında, təhsilimizin pərvanəsi olub.

Fuad Ələsgərov müdrik nəsil ağsaqqalı, cəfakəş ailə başçısı, qayğıkeş övladlar atası, qəlbinin hərarəti ilə boya-başa çatdırdığı ağıllı nəvələr babası, gözünün nuru ilə isindirdiyi nəticələr ulusudur.

Hardandır Fuad müəllimdə bu yüksək əxlaq norması?

Şübhə yox ki, nəsildən gələn tərbiyədə, müqəddəs Ana nəsihətində - "Çalış insanlara gərək ol" – budur səksən illik ömrün ən böyük mükafatı. Bu mükafat sinədən asılan mükafat deyil, bu, yaddaşlarda özünə əbədi qoyulan abidənin təcəssümüdür.

Akademik Ziyad Səmədzadə Fuad Ələsgərovu dəyərli iqtisadçı, etibarlı dost, Azərbaycanda iqtisadi təhsilin inkişafında böyük xidmətləri olan alim kimi qiymətləndirir və 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir. Bu təbrikə "İqtisadiyyat" qəzetinin bütün kollektivi də qoşulur, Fuad müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür diləyir.

100 yaşayın, Fuad müəllim!

**"İQTİSADİYYAT"**

# Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı müşavirə keçirilib



"Milli Kitabxananın nəzdində Milli Arxiv Fondu formalaşmalıdır. Azərbaycandakı bütün nəşriyyatlar tərəfindən buraxılan nəşr məhsullarının nüsxələri təmənnasız olaraq bu fonda təqdim edilməlidir". Bu sözləri fevralın 28-də Milli Kitabxanada kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı tələblərin pozulması ilə əlaqədar nəşriyyat və poliqrafiya müəssisələrinin, jurnal və qəzet redaktorlarının iştirakı ilə keçirilən respublika müşavirəsində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib. O, bildirib ki, əsas məqsəd Milli Kitabxanada mətbu orqanların tarixinin və silsiləsinin yaradılmasından ibarətdir. Bu, bir xəzinə olmalıdır və bu xəzinəyə hər bir buraxılan nəşr daxil edilməlidir.

Nazir "Kitabxana işi haqqında" və "Nəşriyyat işi haqqında" qanunlara əsasən Milli Kitabxananın ölkə ərazisində nəşr olunan kitablardan 4 nüsxə, qəzet və jurnallardan isə 2 pulsuz məcburi nüsxə almalı və onların əsasında milli mətbuatın arxiv fondunu yaratmalı olduğunu da qeyd edib. Milli Arxiv Fondunun yaradılması və bu işin təkmilləşdirilməsinin həmişə ölkə başçısının diqqət mərkəzində olduğunu deyən Ə.Qarayev Prezident İlham Əliyevin İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə müvafiq Sərəncamından danışıb, məcəllədə kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı üzrə tələblərin pozulmasına əlavələr olunduğunu söyləyib.

Nazirlik tərəfindən xüsusi komissiya yaradıldığını və komissiyanın nüsxələrin təqdim edilməsinə nəzarət etdiyini deyən nazir nüsxələri təqdim etməyənlər barədə inzibati xətalar haqqında müvafiq cərimələr tətbiq ediləcəyini də vurğulayıb. Birinci dəfə üçün cərimələr maddi olacaq. İkinci dəfədən isə artıq həmin nəşriyyata qarşı daha ciddi tədbirlər görüləcək. Çıxışının sonunda nazir kitabların nüsxələri ilə bərabər elektron formada da təqdim edilməsi təklifini irəli sürüb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli mətbu orqan və kitabların gələcək nəsillərə çatdırılmasının vacibliyinə diqqət çəkərək, bu işdə çətinlik yaradan məsələlərdən biri kimi mətbəələrin sayının çox olmasını qeyd edib. O, həmçinin təklif edib ki, qəzetlər "Azərmətbuatyayımı" ASC-yə müraciət etsinlər və 10 nüsxə kitabxanalara göndərilsin. "Azərmətbuatyayımı" ilə əməkdaşlıq etməyənlər isə özləri təqdim etsinlər.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov isə çıxışında bildirib ki, Azərbaycanda çıxan bütün mətbu orqanların Milli Arxiv Fondunda toplanılmasına çalışılmalıdır. O, bir sıra ölkələrin arxivlərində olan Azərbaycana məxsus mətbu nəşrlərin nüsxələrinin ölkəmizə gətirilməsini də təklif edib.

Tədbirdə Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyinin sədr müavini Ələddin Əsədzadə, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə də çıxış etmiş və öz təkliflərini səsləndirmişlər.

Sonda Milli Kitabxananın direktoru, professor Kərim Tahirov hər kəsə mətbu nəşr və materialların Milli Arxiv Fondunun yaradılmasına həsr edilən müşavirədə iştirakına və təkliflərə görə öz təşəkkürünü bildirmişdir.

**Mətanət**

# ANA DÜHASI, ANA MÜQƏDDƏSLİYİ

Atalarımız öz söz-sovunda, dədələrimiz öz deyimlərində ana ucalığını anaraq, yüz yol sınaqdan keçirərək beləcə söyləmişdi:
- Ana bala ucundan canını oda yaxar;
- Anadan əziz yenə anadır;
- Ananın səbri tükənməz olar;
- Ana kimi yar olmaz, Vətən kimi diyar;
- Ana evin dirəyidir;
- Ananın qurduğu hulumcaqdan (yelləncəkdən) qız da sallanar;
- Ana igidin qalxanıdır;
- Anasından uzaq düşən quzunu qurd yeyər;
- Analı qızın özü böyüyər, anasız qızın sözü;
- Anasına bax, qızını al, qırağına bax, bezini al;
- Anasızın gördüyü iş danlaqsız bitməz;
- Ana laylası övlad dünyasıdır;
- Anadan keçən, andından da keçər;
- Analıq ərini öyər, uşağın söyər;
- Analıq kişiyə irişər, uşağına girişər;
- Analıq öyüd verməz, söyünc verər;
- Analı uşağın ürəyində yağ, anasız uşağın ürəyində dağ olar;
- Ana uşağına aş gətirər, analıq yaş;
- Analı qızın işi görünər, anasız qızın dişi;
- Analıq - fənalıq;
- Dədə Qorqud: "Qız anadan görməyincə öyüd almaz";
- Biri çətinliyə düşəndə belə söylər: "Anadan əmdiyim süd burnumdan gəldi";
- İgidlik, ərdəmlik çağında kişi belə söylər: "Analar bizi bu gün üçün doğub!";
- Ana soraqlı, ana söykəkli bayatılarımız sayamı gəlir?

Qaratək buzlar gördüm,
Göydə ulduzlar gördüm.
Anasına oxşayan
Qoçaq, mərd qızlar gördüm.
Dağ başı qala yeri,
Gəl, dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

- Evin anası evin dayağı, elin anası elin dayağıdır;
- Eviniz analı olsun;
- Eliniz analı olsun;
- Ana alqışı obanızdan əskik olmasın!

Ana haqqında şairlərin şeirləri, misraları belə səslənir:

Qarlı dağlar gəldi düşdü araya,
Qalmışam qürbətdə, ay ana, ana!
Təbib yoxdu dərman edə yaraya!
Sızıldaşır yaram, ay ana, ana.
(Aşıq Ələsgər)

Ömrə günəş nuru saçandır ana,
Səadət qapısı açandır ana.
(M.Bahar)

Ərş də istər belə yana ürəyi.
Günəşdən sönməzdir ana ürəyi.
(M.Bahar)

Adın şərəflidir sənin ey qadın,
Dahilər anası çağrılır adın!
(S.Vurğun)

Ana övladını bəslər, böyüdür,
Anasız millət, əvət, öksüzdür.
Sənin aləmdə vəzifən, hissən
Nə böyük, həm də ağırdır bilsən?!
(Ə.Cavad)

Ana! Ana! O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.
(C.Cabbarlı)

Nə qədər ki, mən sağam, anam da sağdır mənim,
Səsimdə, nəfəsimdə yaşayacaqdır mənim.
Beşiyimin başında gah gülmüş, gah ağlamış,
Qundağımın bağını nəğmələrdə bağlamış.
Mənim eşqim, ilhamım, hər nəyim var onundu.
Bu qəmlər, bu ələmlər, bu misralar onundu.
Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaradıb, mən aləm yaratmışam.
(M.Şəhriyar)

Bizim dünyamıza bəzəksən, ana,
Əməldə, hünərdə sən, təksən, ana.
(B.Azəroğlu)

Ana səsi dayandırır,
Dağdan qopan vəhşi seli.
Ana səsi oyandırır,
Əsarətdə qalan eli.
(N.Rəfibəyli)

Anadır həyatın, varlığın canı,
Dünyada anadan əziz şey hanı?
(S.Rüstəm)

Həyata təzə bir həyat gəlməmiş
Yüksəlir arzusu Günəşə, Aya.
Hələ bu dünyaya övlad gəlməmiş
Ana məhəbbəti gəlir dünyaya.
(N.Xəzri)

Anadır hər qadının yüksək adı,
Şəfəq adlı var ipək bir qanadı.
Yatmayıb sübhə qədər çox gecələr,
Onu övladının üstündə sərər.
Dinləyir aləm o lay-lay səsini,
Belə səslər analar körpəsini.
(M.Dilbazi)

Ana haqqında peyğəmbərlərimiz, mütəfəkkirlərimiz ibrətamiz, müdrik fikirlər söyləmişlər. Onların bəziləri ilə tanış olaq.
Cənnət anaların ayağının altındadır, yaxud behişt sizin ananızın ayağı altındadır.
(Məhəmməd Ə.S.Peyğəmbər)

Ana! Dünyada sənin müqəddəsliyini təyin edə biləcək hələ heç bir ölçü yoxdur, sənin əzəmətini təsvir edə biləcək hələ heç bir kitab yazılmamışdır.
(M.S.Ordubadi)

Ana olmasa, nə şair olar, nə də qəhrəman.
(M.Qorki)

Həyatda yaxşılıq bacarmayanlar ana məhəbbətindən məhrum olanlardır.
(M.Şəhriyar)

Ana! Ana!.. Sən necə güclüsən, sən necə güclüdən güclü ahən rübasan. Ana, ana, ana! Sən özün Allahsan, ana! Sənin varlığın, sən əzəmətin abidədir, qarşısında diz çökməli Ana abidəsi!
(S.Rəhimov)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"

*Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği istiqaməti üzrə*

# TARIXIN DAŞ YADDAŞINI DANIŞDIRAN ALIM

**Kim bilir neçədir dünyanın yaşı?...**

Yazılar tarixçinin bələdçisidir. Onlar tədqiqatçını tarixin izi ilə gerçəkliyə, dəqiq, bəzən də nadir və orijinal tarixi mənbələrə doğru aparır. Bu yol çətin, insan ayağı dəyməyən yerlərdən keçir.

Xalq şairi Səməd Vurğunun sözləri ilə desək:

*Kim bilir neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır...*

Üstündə yazı, yaxud təsvir olan hər bir daş vaxtilə yer üzündə yaşamış canlı bir insanın nişanəsi, daşlaşmış ürəyidir. Bəlkə də bu daşların üzərindəki təsvirlər tarixin zaman vasitəsilə bizə göndərdiyi əmanətlər, mesajlardır...

*Hər saxsı parçası, hər məzar daşı*
*Nəsildən nəsilə bir yadigardır.*

Yaxın Şərqin ən qədim ölkələrindən biri olan Azərbaycanın ərazisi mədəni abidələrlə zəngindir. Min illər əvvəl zaman bu mənəvi dəyərləri tarixin yaddaşına həkk edib. Həkk edib ki, vaxtın ölçüsü dəyişsə də, onun yazdıqları, yaratdıqları tarixin ayrı-ayrı səhifələrində bizlərə olduğu kimi çatsın.

Qədim abidələr xalqın tarixidir, onun mövcudluğunun sübutudur. Ulu əcdadlarımızın bizə miras qoyduğu qədim əlyazmalar, daş kitabələr arasında orta əsrlərin epiqrafik abidələri xüsusi yer tutur. X əsrin əvvəllərindən XX əsrin sonunadək memarlıq və tarixi abidələrdə müxtəlif xarakterli yazılara təsadüf olunur ki, burada orta əsrlər Azərbaycanının sosial-iqtisadi həyatının bir sıra suallarına cavab tapmaq mümkündür. Monumental memarlıq abidələrində saxlanılıb qalmış, bu abidələrin bədii tərtibatını təşkil edən, hətta qəbir daşlarının üzərində olan yazılar xalqımızın məişəti, sənəti, ticarəti, ictimai fikir tarixi və s. haqqında mülahizələr yürütməyə, həqiqəti üzə çıxarmağa imkan verir. Bunlar əsrlərin əks-sədalarıdır, tarixin izləridir, Azərbaycan xalqının öz əli ilə yazılmış tarixinin monumental səhifələridir. Bu səhifələri hərf-hərf, sətir-sətir, vərəq-vərəq oxuyanlardan, respublikamızın bütün ərazisini qarış-qarış gəzib qədim abidələrimizi tədqiq edənlərdən biri də Məşədixanım Nemət olub.

**Bioqrafik məlumat:**

Məşədixanım Nemətova. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru.

1924-cü il yanvarın 5-də Bakının II Zabrat kəndində anadan olmuş, indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 1954-cü ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Məşədixanım ilk azərbaycanlı epiqrafist elmlər doktoru, şərqşünas alim idi. 1968-ci ildə o, "Epiqrafik abidələr və onların XVI-XIX əsr Azərbaycanının sosial iqtisadi və siyasi tarixinin öyrənilməsində əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində epiqrafika fənnindən dərs demişdir.

Məşədixanım hələ tələbəlik illərində elmə, tarixi abidələrdəki ərəb və fars yazılarına böyük həvəs göstərmiş, bu həvəs, bu arzu da onu aspiranturaya gətirib çıxarmışdır. 1948-1953-cü illərdə o, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun aspirantı olmuşdur. Görkəmli epiqrafist Ə.Ələsgərzadənin rəhbərliyi ilə Şirvanın epiqrafik abidələrini tədqiq etməyə başlamışdır. 1954-cü ildə "Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında)" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Elə həmin ildən Azərbaycanın bütün epiqrafik abidələrini tədqiq etmək fikrinə düşən gənc alim Dərbənddən Laçına qədər, Sabirabaddan Qutqaşenə (indiki Qəbələ) qədər bütün qədim sarayları, körpüləri, karvansaraları, xanəgahları, pirləri, ovdanları, məscidləri, qalaları, məqbərələri gəzərək, onların üzərindəki kitabələri toplayıb, tədqiq etməyə başlamışdır. O, həmçinin Gürcüstan və Ermənistan ərazisində yerləşən Azərbaycan abidələrini də nəzərdən keçirmişdir.

Məşədixanım Nemət bir sıra doktorluq və namizədlik dissertasiyalarında opponent olmuşdur. O, Memarlıq Abidələrinin Bərpası İdarəsinin elmi məsləhətçisi olmuşdur. Respublikanın bir sıra tarix diyarşünaslıq muzeylərində sərgilərin qurulmasında iştirak etmişdir. Tarixi abidələrin qorunması, istifadə olunması qaydaları, epiqrafik abidələrin tarixi mənbə kimi əhəmiyyəti və s. bu kimi məsələlərə dair televiziya və radio kanallarında çıxışlar etmişdir.

Məşədixanım Nemət Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya üzrə müdafiə şurasının, institutun elmi şurasının, Tarixi mədəniyyət abidələrinin qorunması cəmiyyətinin rəyasət heyətinin, Azərbaycan MEA ictimai elmlər şöbəsi nəzdindəki Orta Əsr Azərbaycan Tarixi Koordinasiya Şurasının üzvü olmuşdur. Əsərləri Bakı, Moskva, Sankt-Peterburq, Aşqabad, Daşkənd, Mahaçqala və Türkiyədə nəşr olunmuşdur.



**Azərbaycanın amazonkası**

Onunla ilk görüşümüz 2001-ci ildə AMEA-nın Tarix və Arxeologiya İnstitutunda oldu. Müsahibə almaq üçün ona yaxınlaşdım. Haqqında çox oxumuş, xeyli məlumat toplamışdım. Ancaq həyəcanımı boğa bilmirdim. Bunu hiss edib çox mehribancasına hal-əhval tutdu, söhbətə başladı və özündən, tələbəlik illərindən, ilk iş yerindən, at belində doğma vətəni gəzməyindən, abidələri araşdırmağından danışdı və mənim əvvəlki həyəcanımdan əsər-əlamət belə qalmadı. Söhbətimiz çox maraqlı keçdiyindən, vaxtın necə başa çatdığını hiss etməmişdik.

Beləcə, Məşədixanım müəllimədən ilk müsahibəni aldıqdan sonra redaksiyaya qayıdarkən yol boyu bu bəstəboy, zərif qadının nə qədər güclü olduğu barədə düşünürdüm. Onun bu yaşda da həyat eşqi ilə yaşadığının, gənclik fədakarlığı ilə çalışdığının şahidi olmuşdum. Bəlkə də ruhun heç vaxt qocalmadığı fikrinə ilk dəfə o gün inanmağa başlamışdım. Onunla sonrakı görüşlərdə buna bir daha əmin oldum. Mənim üçün Məşədixanım müəllimə böyük alim, yorulmaz tədqiqatçı, canlı ensiklopediya, səmimi və mehriban müsahib, nəhayət, gözəl insan idi. Azərbaycanda epiqrafika elmi məhz Məşədixanım müəllimənin vətən sevgisi, inadkarlığı, yorulmazlığı sayəsində bir məktəb formalaşdırmışdır və bu məktəblə indi dünya hesablaşır.

Məsələn, qədim Azərbaycan torpağı olan Zəngəzur abidələrini (Urud abidələri) erməni abidələri kimi qələmə vermək istəyən erməni tarixçilərini sovet dövründə ilk susduran Məşədixanım Nemət olmuşdur. Məşədixanım Nemətin aşkar etdiyi çox nadir faktlar "Böyük Ermənistan" xülyaları ilə yaşayan, Urud abidələrindəki kitabələri təhrif ediərək, qəbiristanlığı darmadağın edən və Zəngəzurun heç vaxt Azərbaycan torpaqlarına daxil olmadığını sübut etməyə çalışan üzdəniraq erməni tarixçilərinə sanki müharibə elan etmiş, daş kitabələri toplamaqla, oxuyub dəlil-sübutlar tapmaqla onların qarşısına dəqiq faktlar qoymuşdur.

Erməni tarixçiləri nəyin bahasına olursa-olsun, Dərbənddən o yana olan abidələrin onların əcdadlarına məxsus olduğunu sübut etməyə çalışsalar da, Məşədixanım Nemət təkzibolunmaz faktlarla atəşpərəst albanların, tarix boyu bu torpaqda yaşamış türklərin, türkdilli xəzərlərin, türkdilli qıpçaqların, köçəri çöllülərin, skiflərin qədim, köklü mədəniyyətlərini üzə çıxarmış və sübut etmişdir ki, bu torpaqlar heç vaxt ermənilərin olmayıb. Bu işdə Məşədixanım Nemətin xidmətləri əvəzsizdir.

Məşədixanim Nemət təkcə Abşeronun, Şirvanın, Muğanın, Qarabağın, Milin, Gəncəbasarın deyil, Naxçıvanın, Dərbəndin, hazırda erməni işğalı altında olan Qərbi Azərbaycanın, Gürcüstandakı azərbaycanlı abidələrinin daş yazılarını oxumuşdur. Ərəb-fars əlyazması ilə yazılmış, hətta IX əsrə aid olan unudulmuş xətləri də Məşədixanım Nemət oxumuşdur.

Azərbaycan memarlığı tarixində Əcəmidən sonra görkəmli yer tutan, XIII əsrdə yaşayıb-yaratmış memar Əli Məcdəddinin adını da kitabələrə əsasən Məşədixanım Nemət aşkar etmiş, dünyaya tanıtmışdır.

*O, bu barədə şeirlərinin birində deyirdi:*

*Daş etmişmi ürəkləri daşa dönmüş kitabələr?*
*Qulaq verin, türk babamın öyüdləri nələr söylər.*
*Neçə-neçə alim, memar, nəqqaş, xəttat adlarını*
*Sənət tarixinə vermiş yadigardır kitabələr...*

Bu zərif qadını tez-tez təbiətin qoynunda, kol-koslu meşələrdə, ilanlar mələşən qanqallı qəbiristanlıqlarda, sıldırım qayalıqlarda, düzənlərdə at belində görmək olardı. Tarixçilər ona "Azərbaycanın amazonkası" adını vermişdilər. Bu çətinliklərə sinə gərmək hər qadının hünəri deyildi.

Bir maraqlı faktı da qeyd etməmək mümkün deyil. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud kəşfləri haqqındakı çıxışı ulu öndər Heydər Əliyevin böyük marağına səbəb olmuşdu. Ulu öndər buradakı tarixi çıxışında demişdi: "Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin".

**Alim adını qürurla daşıyan insan**

Epiqrafika çox mürəkkəb elm olduğundan bu sahəni nadir adamlar seçir. Məşədixanım özü bu barədə deyirdi: "Epiqrafiya üzrə mütəxəssis heç bir institutda hazırlanmır. Bu elm sahəsində çalışan adam iti gözlü, elmi səfərlər zamanı bütün əziyyətlərə dözümlü olmalıdır. Çünki epiqrafist alimin iş laboratoriyası rahat otaqlarda deyil, açıq səma altında, təbiətin qoynundadır. Bu laboratoriyaya gedən axtarış yolları isə tapdanmış cığırlardan deyil, bəzən əsrlərdən bəri insan ayağı dəyməmiş, qızmar günəş altında adam boyuna qədər qalxmış ilanlı kolluqlardan, uçurumlu dağ aşırımlarından keçir. Bəzən günlər boyu hündür nərdivan başında, qızmar günəş altında işləməli olursan. Kitabələri oxumaq üçün epiqrafist alim Şərq dillərini, ərəb qrafikasını, indi əksər ərəblərin özlərinin belə oxuya bilmədiklərini, IX əsrdən ləğv etdikləri müxtəlif sufi xətlərinin və epiqrafik adibələrin mənbə kimi əhatə etdiyi bütün problemləri bilməlidir".

Məşədixanım həm də şair təbiətli xanım idi. O, bir çox abidələrin məzər daşlarının üzərində maraqlı yazılar aşkar etmiş, onlardan çoxunu tərcümə etmişdir. Zığ kəndində yerləşən şəhid Əmir İsfəndiyarın (hicri 552/1448-49-cu illər) məzar daşında yazılan şeirdə ananın bala həsrəti ilə iztirabları təsvir edilir:

*Qılmadı kimsəyə ruzigar vəfa,*
*Aqilə etməz xəta tiri-cəfa.*
*Kimsənin əyninə dünya dərzisi,*
*Köynək tikmədi ki, etməsin qəba (qəba etmək ölünün əynindən köynəyi cırıb çıxartmağa işarədir).*

Və ya başqa bir qəbir daşında həkk olunmuş yazı:

*Ey çərxi fələk, bu bivəfalıq nə idi?*
*Cövrun çəkən aşiqə cəzalıq nə idi?*
*Sən ki məni bu dərdə mübtəla edər idin,*
*Ey namərd fələk, bəs bu aşinalıq nə idi?*

Məşədixanım müəllimə QADIN adını ləyaqətlə, ANA adını şərəflə, ALİM adını qürurla, AZƏRBAYCANLI adını fəxrlə daşıyan gözəl insan idi.

Ömrünün 60 ildən çoxunu bu elm sahəsinə həsr etmiş görkəmli alim apardığı axtarışlar nəticəsində 2500-dən artıq ərəb, fars və türkdilli ərəb qrafikasının ən çətin oxunan müxtəlif xətlərlə yazılmış kitabələri toplamış, Azərbaycan tarixi, memarlıq, sənətşünaslıq, toponomika, tibb tarixi, Azərbaycan xalqının təşəkkülü və s. bu kimi problemlərə dair 12 monoqrafiya çap etdirmişdir. O, 200-dən çox elmi tezis və məqalənin, o cümlədən 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nun müəllifidir. 2009-cu il martın 4-də "Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Bir şeirində deyir:

*Var idim, izim qaldı*
*Od idim közüm qaldı.*
*Əsrin daş yaddaşında*
*Mənim də izim qaldı...*

Əsrin daş yaddaşında sözü və izi qalan Məşədixanım müəllimə ötən ilin dekabrında dünyasını dəyişdi. Şərəfli ömür sürən bu gözəl insan onu sevən hər bir kəsin qəlbində özünə kiçik bir abidə ucalda bilmişdir. Bu abidə qeyrət, ləyaqət, vətənpərvərlik abidəsidir...

**Yeganə MƏMMƏDOVA**

# *Məşədixanım Azərbaycan elminin milli sərvətidir*



**Nailə Vəlixanlı, Tarix Muzeyinin direktoru, akademik:** Məhz Məşədixanımın əməyi sayəsində daşlar üzərində yazılar bizə gəlib çatıb. Onun yazdıqları hələ uzun illər tariximizin müəyyən dövrlərini işıqlandırmaq üçün bizə əsas material olacaq.

Məşədixanım Nemət çox ləyaqətli bir ömür sürüb. O, bütün mənalı ömrünü xalqına xidmətə həsr etdi və çox böyük mədəni, zəngin irs qoyub getdi. Bu, hər alimə nəsib olmur.



**Teymur Bünyadov, akademik:** Elm Çində də olsa, dalınca get! Ulu peyğəmbərimizin bu müdrik kəlamı elmə verilən ən yüksək qiymətdir. Məşədixanım bu şərəfə layiq elm adamı olmuşdur. Əminəm ki, bu xanım elmin dalınca nəinki Çinə, lap dünyanın o başına da gedərdi, gedib də. Vətəni Azərbaycanla yanaşı, Rusiyada, Orta Asiyada, İranda, Türkiyədə, Avropa ölkələrində, haralarda olmayıb, kimlərlə görüşməyib. Kimlərlə elmi söhbətlər aparmayıb. Nə yaxşı, nə gözəl... Məşədixanım ağır, çətin işlərlə rastlaşarkən şair olmaya bilməzdi. Onun vətənə, abidələrə sevgi və məhəbbətlə bağlı şeirləri qəlbə nüfuz edir, onu bizə sevdirirdi.



**Ziyad Səmədzadə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik:** Xalqımızın elm və mədəniyyət tarixində xanım alimlərimizin sayı nisbətən az olsa da, onların bəzilərinin ağır əməyi nəticəsində, ümumiyyətlə millətimizin tarixi təfəkkürünün formalaşmasını təsəvvür belə etmək mümkün deyildir. Belə alim xanımlarımız sırasında tarix elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, "Şöhrət" ordenli Məşədixanım Nemətin özünəməxsus yeri vardır.

Məşədixanım Nemət! Bu adı Azərbaycandan başqa Orta Asiyada, İranda, Dağıstanda, Gürcüstanda və hətta Ermənistanda çox yaxşı tanıyırlar. Bu ad bizim ailəmizdə də böyük ehtiramla yad edilir. Onun yazdığı əsərlər mənim stolüstü kitablarımdır. Məşədixanım Azərbaycan elminin milli sərvətidir!", – desəm, yəqin ki, yanılmaram".









# Özümlə baş-başa düşüncələrim...



## Qısa arayış

Tamilla Əmirkişiqızı Muradova füsunkar təbiətli Buzovnada doğulub, boya-başa çatıb. Buzovnadakı 125 saylı tam orta məktəbin məzunu olub. 1971-ci ildə APU-nun Azərbaycan dili və ədəbiyyat fakültəsini bitirib. Tamilla Əmirkişiqızı təhsil sahəsində qazandığı uğurlara görə "Əməkdar müəllim" fəxri adını alıb. İlk qələm təcrübəsi Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların xatirəsinə ehtiram əlaməti olaraq yazdığı "Buzovna şəhidləri" kitabıdır. "Tale yükü", "Nağılın sonu olmur", Milli Qəhrəman Mübariz İbrahimova həsr etdiyi "Tarix qəhrəmansız yaşaya bilməz" povesti, "Kəbir Azərin söz dünyası", "Bu dünyanı ürəyində gəzdirir", "Laqeydliyin bəlası", "Hikmət dünyası", "Həyatın üçüncü üzü varmı?" bədii publisistik əsərləri və "Dünyamı söz bəzəyir", "Tanrı quşuyam", "Arzularım boyda dünyam olaydı" şeir kitabları çapdan çıxmışdır. "Söz xəzinədir" toplumunda, zamanın sınaqlarından çıxan, elin varına, sərvətinə çevrilən möhtəşəm yazılı ədəbiyyatın təməlində sökülməz hörgüyə çevrilən bu kitabda 6500-ə yaxın atalar sözləri, aforizmlər, müdrik kəlamlar toplanmışdır. Üç metodik vəsaitin müəllifidir.

Tamilla Əmirkişiqızı Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Qızıl qələm", "Ustad sənətkar", "İnam", "Nurlu ziyalı" "Ali media" mükafatları laureatı Diplomlarına layiq görülüb. Tamilla Əmirkişiqızı hal-hazırda Xəzər rayonu İ.Tağıyev adına 16 saylı tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir.

...Dünya təkdir. Sağı, solu bizik. Bizlər dünyanı idarə etməyə başlayırıq.

İstədiyimizi, haqqımızı layiq olmayanlara yedideririk. Sonda dünyanı lənətləyirik. Gah havanı, gah suyu, gah küləyi bəhanə edib ürəyimizi boşaldırıq. Əslində əllərimiz yanımızdadır. Ürəyimizdə dünya bir-birinə qarışıb. Gözlərimizdə parlayan qığılcımların tüstüsü təpəmizdən çıxır. Üzdə başqalarına xoş olsun deyə zorən gülümsəyirik. Etibarlı dostlar kimi kindən yumulmuş ovcumuzu sədəqə verirmiş təki irəli uzadırıq. Əl veririk. Hələ bir üzr də istəyirik. Üzümüzü çevirən kimi: "Ax, dünya", - deyib ürəyimizi soyuduruq. Vəzifəmizi, icbari həyatımızı, bizə qarşı ittihamları unudub dünyaya "sağ ol" demədən uzaqlaşırıq. Səhərin açılmasını gözləyirik. Yeni güman və şübhələrlə üzləşirik. Beləcə, illər yaş üstünə yaş gətirir, ağlımıza möhür vurulur, kilidi möhkəm olur. Sanki təsadüfdən yaranan zərurət utanır, üzlərdən xəcalətli olur. Torpaq bizi səsləyəndə, belimiz büküləndə, günahlarımızın bağışlanması üçün dualar edəndə yenə də dünya səsimizə səs verir. Görmürük, eşitmirik, kiminsə tərcüməsinə ehtiyac duymuruq və gec də olsa dərk edirik ki, əslində dünyada iki şey var. Onlar nədir? Nadirlər sualdan azad ola bilməyəcək, çünki suallardan uzaqlaşmaq və onların yerdəyişməsinin qarşısını almaqda acizik.

Dünyada iki şey nədir?

1. Sevmədiyin insanın silahından gələn mərmi.

2. Sevdiyin insandan gəlməyən istilik.

Bu sözlər Tamilla Əmirkişiqızının yenicə çapdan çıxmış "Düşüncələrim" adlı kitabındandır. Müəllif arzularının böyüklüyü qədər azad olanların xatirəsinə ithaf edib bu kitabı. Kitabı vərəqlədikcə müəllifin fikirlərini, düşüncələrini oxuyub sanki onunla həmsöhbət olursan.

"Düşüncələrim" kitabında Sözün qüdrəti uca tutulur. Qələmə alınan düşüncələr sözdən söz alıb yeni düşüncələrə yol açır.

"Düşüncə" sözünün mənasını açmaq, izahını vermək mümkünsüzdür. Müəllif insan düşüncəsini yükdən azad etmək fikrində deyil. Sadəcə olaraq dünya, zaman, həyat, ömür, tale, bəxt anlayışlarını fikir süzgəcindən keçirmiş, ürəkdə bir yükü azaltmaqla, yerini başqa bir yükün tutduğunu reallıqla təsvir etmişdir.

Müəllif acı həqiqətlərdən dərs almaq və qəribə taleli insanlara ümidli günlər arzulamaqla oxucularının görüşünə gəlmişdir.

Deyirlər ki, insan kimi, kitabların da qəribə taleyi var.

Həyatın gecələri şəkil, səhərləri sözmüş demə…

Düşüncələrin düşüncə ömrü, sözə möhtacmış demə…

Tamilla xanımı bu kitabının işıq üzü görməsi və qarşıdan gələn 8 Mart - Qadınlar bayramı münasibətilə ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları diləyirik.

**Kitabdan seçmələr:**

• **Ağıl nur saçar qəlbə, zinət verər,**
**Çətin gündə iqbala yol göstərər.**

• **Ağıllı, nəcib olsa övlad əgər,**
**Qız olsun, ya oğlan, nə fərq eyləyər?**

• **Aləm sədəfində insandan qiymətli bir gövhər görmədim, insan gövhərində isə sözdən bahalı cövhər görmədim.**

• **Acgöz olmamaq artıq zənginlikdir, bədbəxt olmamaq isə gəlirdir.**

• **Bütün insanlar səhv edir, ancaq böyük insanlar səhvlərini dərk edirlər.**

• **Birinin etdiyi səhv başqasının aldığı dərsdir.**

• **Düzlüklə pəhrizkarlıq birləşəndə əsl insanlıq cilvələnər.**

• **Ədalət kainatın ruhudur.**

• **Əgər sənə heç kim paxıllıq etmirsə, özündən soruş. Məgər mən düzgün yaşayırammı?!**

• **Günahsızlar məşhər günü ətəyindən tutub haqlarını istəyəcəklər, nə edəcəksən?**

• **Hər kəs hər şeyi başa düşsəydi, onda başadüşməzlər nəyi başa düşərdi?**

• **Heç kəs keçmişini satın alacaq qədər zəngin deyildir.**

"İQTİSADİYYAT"












Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanova atası

**NİZAM ALIŞANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150